RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 124 (9003) ÇƏRŞƏNBƏ AXŞAMI, 14 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti barədə Bəyannamənin imzalanması Azərbaycan-Rusiya əlaqələrinin yüksək səviyyəsini təsbit edir



### Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramınız - Rusiya Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Xalqlarımızı bir-birinə bağlayan çoxəsrlik dostluq və mehriban qonşuluq telləri Azərbaycan-Rusiya strateji tərəfdaşlığının və çoxplanlı əməkdaşlığının davamlı inkişafının etibarlı əsasıdır. Ölkələrimizin ikitərəfli gündəlikdəki məsələlərin geniş spektri üzrə qarşılıqlı fəaliyyəti xüsusi məmnunluq doğurur.

Cari ilin fevral ayında Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti barədə Bəyannamənin imzalanması son otuz il ərzində yaranmış dövlətlərarası əlaqələrimizin yüksək səviyyəsini təsbit edib.

Əminəm ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər xalqlarımızın və ölkələrimizin rifahı naminə birgə səylərimizlə bundan sonra da durmadan möhkəmlənəcək və genişlənəcək.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Rusiyanın dost xalqına əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2022-ci il*



# Azərbaycan bölgədə təhlükəsizlik sisteminin ən mühüm tənzimləyici amilidir

→ 3

***Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi general-polkovnik Ramil USUBOV:***
"Prezident İlham Əliyev Cənubi Qafqazın təhlükəsizlik sistemini yenidən qurur, onu sağlam əsaslarla formalaşdırır və bölgənin iqtisadi, sosial inkişafı üçün etibarlı zəmin yaradır"

## Qardaşlığın zirvəsi



### Cənubi Qafqazın yeni təhlükəsizlik konsepsiyası sayılan Şuşa Bəyannaməsinin imzalanmasından bir il ötür

**İyunun 15-də iki qardaş ölkə - Azərbaycanla Türkiyə arasında tarixi Şuşa Bəyannaməsinin imzalanmasının bir ili tamam olur.**

Prezidentlər İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın imza atdığı bu bəyannamə bu il fevralın 1-də Azərbaycan parlamenti, fevralın 4-də isə Türkiyə Böyük Millət Məclisi (TBMM) tərəfindən ratifikasiya olunub.

Bəyannamənin mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanması tarixi hadisə idi. Çünki tarixi köklərə dayanan əlaqələr Şuşa Bəyannaməsi ilə bir daha təsdiqini tapdı. Vətən müharibəsinin başladığı ilk günlərdən Türkiyənin Azərbaycanın yanında olduğunu elan etməsi, ölkəmizə birmənalı dəstəyi bu tarixi sənədlə strateji müttəfiqlik zirvəsinə daşındı. Bəyannamə Azərbaycan və Türkiyə arasında ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki müttəfiqlik, əlaqələrin genişləndirilməsi, imkan və potensiallarının birləşdirilməsini nəzərdə tutur.

Tarixi gündə imzalanan mühüm sənədin əhəmiyyətini dəyərləndirən ekspertlər də birmənalı şəkildə qeyd edirlər ki, iki qardaş ölkə arasındakı münasibətlər bu gün ən uca zirvəyə yüksəlib.

→ 4

## Dövlət qəhrəmanlarına sahib çıxır

Şəhid ailələri, müharibə əlilləri və bu kateqoriyadan olan digər şəxslərə maliyyə dəstəyinin göstərilməsi, onların mənzillərlə, minik avtomobilləri ilə təminatı, müalicəsi, sosial durumunun yaxşılaşdırılması istiqamətində görülən digər tədbirlər ardıcıl xarakter daşıyır. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, bu insanlar hərtərəfli sosial təminat sistemi ilə əhatə olunublar.

Aylıq təqaüd və digər sosial ödənişlərlə yanaşı, həmin vətəndaşların rifahının yaxşılaşdırılmasına xidmət edən bir çox sosial proqramlar həyata keçirilir ki, bunlardan da biri onların məşğulluq probleminin həllidir. Aktiv məşğulluq proqramlarında - özünüməşğulluqda, ödənişli ictimai işlərdə bu kateqoriyadan olan insanlara üstünlük verilir. Başqa sözlə, şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması üçün bu istiqamətdə mütəmadi iş aparılır.

→ 5

## Azərbaycan Ulu Öndər Heydər Əliyev ideyalarının işığında böyük inkişaf yolu keçib

İyunun 13-də Ağcabədi şəhərində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluşdan Zəfərə" adlı regional konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin bir qrup deputatının, Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının məsul əməkdaşlarının, partiyanın Qarabağ və Şərqi Zəngəzur zonalarını əhatə edən Ağdam, Bərdə, Tərtər, Füzuli, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayon təşkilatlarının sədr və fəallarının, eləcə də Ağcabədi rayon ictimaiyyətinin nümayəndələrinin, şəhid ailələrinin, qazilərin iştirak etdiyi tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzi meydanındakı abidəsi ziyarət edilib, önünə gül dəstəsi qoyulub.

→ 7

## "Formula-1" Azərbaycan Qran-prisi başa çatdı

İyunun 12-də Bakı Şəhər Halqasında "Formula-1" üzrə dünya çempionatının səkkizinci - Azərbaycan Qran-prisinin əsas yarışına start verilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Qran-prinin açılış mərasimi keçirilib. Açılış mərasimində "Lumineux" vokal xor ansamblı Azərbaycan Respublikasının Dövlət Himnini ifa edib.

Himnin ifası zamanı "SOS Uşaq Kəndləri Azərbaycan" təşkilatı tərəfindən qayğı göstərilən, valideyn himayəsindən məhrum uşaqlar əllərində pilotların fotoşəkilləri olan lövhələr tutublar. Uşaqların Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin növbəti sosial məsuliyyətyönümlü fəaliyyətində iştirakı böyük maraqla qarşılanıb. 1999-cu ildə yaradılmış "SOS Uşaq Kəndləri Azərbaycan" təşkilatı valideyn himayəsindən məhrum uşaqlar üçün ailələr yaratmaqla onlara öz gələcəklərini qurmaqda kömək edir.

→ 8



# Azərbaycan Avropa çempionudur

→ 11

## "SOCAR Türkiyə" ilk onluqda yer alıb

### Türkiyə İxracatçılar Məclisi "2021-ci il ixracat çempionları" siyahısını açıqlayıb

Türkiyə İxracatçılar Məclisi (TİM) "2021-ci il ixracat çempionları" siyahısını açıqlayıb. Türkiyədə ən böyük xarici investor olan "SOCAR Türkiyə" bu siyahıda 8-ci yerə layiq görülüb.

"SOCAR Türkiyə"dən AZƏRTAC-a bildirilib ki, şirkətin törəmə müəssisəsi olan "Petkim" TİM-in "İlk 1000 ixracatçı" siyahısında 22-ci sırada yer alıb.

Haliç Konqres Mərkəzində keçirilən tədbirdə ötən il Türkiyədə ən böyük ixrac dövriyyəsinə malik olmuş 10 şirkətə mükafatlar verilib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "SOCAR Türkiyə"nin layiq görüldüyü mükafatı Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarova təqdim edib.

→ 6

## Seçici etimadsızlığı

### Fransada keçirilən parlament seçkilərinin birinci turunda aşkar lider müəyyənləşməyib

Fransada keçirilən parlament seçkilərinin ilk turunda Prezident Emmanuel Makronun "Birgə" koalisiyası 25,8 faiz səslə liderdir. Jan-Lük Melanşonun başçılıq etdiyi "Yeni Xalq Ekoloji və Sosial İttifaqı" (NUPES) minimal fərqlə - 25,7 faizlə ikinci, Marin Le Penin sağçı populist "Milli Birlik" partiyası isə 18,7 faiz səslə üçüncüdür.

Birinci turda səsvermənin ilk nəticələrinin dərcindən sonra parlament seçkilərində iştirak edən Fransa hökumətinin bir neçə üzvü vəzifəsindən getmək təhlükəsi ilə üzləşib. Bunu Fransa Daxili İşlər Nazirliyinin məlumatları sübut edir. Seçkilərdə hökumət üzvlərinin yarıdan çoxu iştirak edir - 14 nazir və Baş nazir Elizabet Born. Prezident Emmanuel Makron xəbərdarlıq edib ki, seçki dairələrində məğlub olanlar kabinetdə qala bilməyəcəklər.

Baş nazir Kalvados departamentində öz bölgəsində birinci yeri qazansa da, solçu NUPES koalisiyasından olan rəqibi Noe Qoşar üzərində kifayət qədər üstünlüyə nail ola bilməyib.

→ 12

# Baş nazir Əli Əsədov Slovakiya Milli Şurasının Sədri Boris Kollar ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 13-də Slovakiya Respublikası Milli Şurasının Sədri Boris Kollar ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Slovakiya münasibətlərinin müxtəlif istiqamətlərdə inkişaf etdiyi məmnunluqla vurğulanıb. Slovakiya Milli Şurasının Sədrinin ölkəmizə səfərinin ikitərəfli əməkdaşlığın dərinləşməsinə təkan verəcəyinə əminlik ifadə olunub.

Eyni zamanda B.Kolların rəhbərlik etdiyi parlament nümayəndə heyətinin Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfərinin əhəmiyyəti vurğulanıb. Bu kontekstdə işğaldan azad olunmuş ərazilərin, kənd və şəhərlərimizin bərpası və yenidən qurulması istiqamətində görülən işlərdən bəhs olunub.

İki ölkə arasında investisiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu diqqətə çatdırılıb. Bu baxımdan Ələt Azad İqtisadi Zonasının önəmi qeyd edilib, Slovakiya şirkətlərinin xarici investorlar üçün burada yaradılmış əlverişli imkanlardan faydalana biləcəyi bildirilib.

Söhbət zamanı enerji təhlükəsizliyi ilə bağlı müzakirələr aparılıb. Azərbaycanın zəngin enerji ehtiyatları və infrastrukturu ilə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi bildirilib. Bu baxımdan "Cənub qaz dəhlizi"nin önəmi xüsusi vurğulanıb.

Görüşdə həmçinin iki ölkə arasında siyasi, iqtisadi-ticari, sərmayə qoyuluşu, enerji, humanitar və bir çox digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

# Azərbaycan qlobal maraq doğuran məsələləri dəstəkləyir



İyunun 13-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan BMT Baş Assambleyasının 76-cı sessiyasının prezidenti Abdulla Şahidlə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan spiker Sahibə Qafarova bu səfərin BMT ilə Azərbaycan arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəyinə inandığını bildirib.

Bu ilin fevral ayında BMT-nin Azərbaycandakı daimi koordinatoru xanım Vladanka Andreeva ilə Milli Məclisdə görüşünü xatırlayan spiker həmin görüş barədə təəssüratlarını bölüşüb. Sahibə Qafarova diqqətə çatdırıb ki, bu il biz Azərbaycanın BMT-yə üzv olmasının 30 illiyini qeyd edirik. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının həmişə çox fəal üzvü olub. Ölkəmiz 155 üzv dövlətin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib ki, bu da ölkəmizin beynəlxalq nüfuzuna dəlalət edir.

Milli Məclisin Sədri bildirib ki, bu gün Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi BMT-nin təşəbbüslərini dəstəkləyir və qlobal maraq doğuran məsələlərə öz töhfəsini verir. Ölkəmiz sədrliyi dövründə bu təşkilatın bir neçə sessiyasının çağırılmasının təşəbbüskarı olub. Bundan başqa, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsini yaradıb. Parlament Şəbəkəsinin Birinci Konfransının bütün üzv ölkələr üçün faydalı olacağına inanırıq.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan çoxmədəniyyətli ölkədir. Multikulturalizm xalqımızın həyat tərzidir. Ölkəmizdə müxtəlif dini və etnik qruplar əsrlər boyu sülh və dostluq şəraitində birgə yaşamışlar.

Azərbaycanda qadınların ölkə həyatının müxtəlif sahələrində yaxından iştirak etdiyini qeyd edən Milli Məclisin Sədri bildirib ki, Azərbaycan Şərqdə qadına seçki hüququ vermiş ilk ölkədir. Bu gün Azərbaycanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, həmçinin parlamentdə müvafiq komitə fəaliyyət göstərir.

Görüşdə 44 günlük Vətən müharibəsi və regionda yaranmış yeni reallıqdan danışan Sahibə Qafarova Azərbaycanın davamlı sülh və sabitliyin tərəfdarı olduğunu diqqətə çatdırıb. Spiker tezliklə Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalanacağına inamını ifadə edib.

Azərbaycan Milli Məclisində olmaqdan məmnunluğunu bildirən BMT Baş Assambleyasının 76-cı sessiyasının prezidenti Abdulla Şahid BMT-Azərbaycan əməkdaşlığının yüksək səviyyədə olmasından, ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyindən razılığını bildirib.

Söhbət zamanı qonaq parlament şəbəkəsinin qurulmasında Azərbaycanın təcrübəsi və aktiv rolu, gender bərabərliyi, qadınların siyasətdə iştirakı, regionda davamlı sülhün təmin olunmasının vacibliyi və digər məsələlər barədə fikirlərini açıqlayıb.

Görüşdə qonaq Azərbaycanın tezliklə azad edilmiş ərazilərini bərpa edəcəyinə və orada yenidən həyatın öz axarına qayıdacağına inamını ifadə edib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# BMT Baş Assambleyasının prezidenti Şəhidlər xiyabanını ziyarət edib

Ölkəmizdə səfərdə olan Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının prezidenti Abdulla Şahidin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 13-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, BMT Baş Assambleyasının prezidenti Abdulla Şahidin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.



# Slovakiya Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verir



**İyunun 13-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikası Milli Şurasının spikeri Boris Kolların başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə slovakiyalı spikerlə təkbətək görüş olub. Görüşdə ölkələrimiz və qanunverici orqanlarımız arasında əlaqələrə dair fikir mübadiləsi aparılıb.

Sonra görüş geniş tərkibdə davam etdirilib. Parlamentin Sədri qonaqları səmimiyyətlə salamlayaraq bu səfəri ölkələrimiz arasında dostluq münasibətlərinin təzahürü kimi dəyərləndirib. Sahibə Qafarova ötən il Slovakiyaya səfərini xatırlayaraq bu ölkə rəsmiləri ilə keçirilən görüşlərin əhəmiyyətini vurğulayıb. O, ümidvar olduğunu bildirib ki, Slovakiya spikerinin Azərbaycana səfəri çərçivəsində keçirdiyi görüşlər münasibətlərimizin daha da dərinləşməsinə və genişləndirilməsinə töhfə verəcək. Bildirilib ki, yüksəksəviyyəli nümayəndə heyətlərinin səfərləri zamanı aparılan danışıqlar əlaqələrimizin inkişafında mühüm rol oynayır. Bu gün Azərbaycanla Slovakiya arasında siyasi, iqtisadi, ticarət, humanitar və digər sahələri əhatə edən bir sıra sənədlər imzalanıb. Bu sənədlər münasibətlərimizin hüquqi bazasını təşkil edir.

Sahibə Qafarova Slovakiya nümayəndə heyətinin ölkəmizə səfəri zamanı Azərbaycanın bölgələrini ziyarət etməsini ölkəmizlə tanışlıq baxımından əhəmiyyətli hesab edib. Bildirilib ki, Azərbaycan çoxmədəniyyətli, multikultural ölkədir. Müxtəlif mədəniyyətlərə, dinlərə və irqlərə hörmət Azərbaycan xalqının mənəvi dəyərlərinin tərkib hissəsidir. Müxtəlif dini və etnik qruplar əsrlər boyu burada sülh və dostluq şəraitində yaşayıblar. Spiker deyib ki, səfər çərçivəsində qonaqlar da şahid oldular ki, Bakıda və Azərbaycanın bölgələrində müxtəlif dini və mədəni abidələr - katolik, pravoslav kilsələr, sinaqoqlar və məscidlər yan-yana fəaliyyət göstərir.

Dövlətlərarası münasibətlər sistemində parlamentlərin rolunu vurğulayan Sahibə Qafarova parlament spikerlərinin və deputatların qarşılıqlı səfərlərini əməkdaşlığımızın inkişafı baxımından önəmli hesab edib. O, hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib, bunun təcrübə və informasiya mübadiləsi baxımından önəmini vurğulayıb.

Spiker AŞ PA, ATƏT PA, NATO PA, Parlamentlərarası İttifaq kimi beynəlxalq təşkilatlarda əməkdaşlığımızın səviyyəsini daha da artırmaq üçün yaxşı imkanlar olduğunu deyib.

Sədr qonaqların Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə, o cümlədən mədəniyyət paytaxtımız Şuşaya səfərlərinə toxunaraq qeyd edib ki, Ermənistan işğal dövründə bu ərazilərdəki bütün şəhər və kəndləri bilərəkdən dağıtmış, mədəni, dini obyektləri vandalizmə məruz qoymuşdur. Azərbaycan öz ərazilərini azad etdikdən sonra həmin bölgələrdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlayıb. Hazırda işğaldan azad olunmuş ərazilərdəki bütün infrastruktur bərpa edilir. "Yaşıl enerji" zonası elan edilən Qarabağda və Şərqi Zəngəzurda yeni şəhərlər, kəndlər tikilir. Ancaq Ermənistan tərəfindən həmin ərazilərin minalanması bu işlərin həyata keçirilməsinə və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtmasına böyük maneçilik törədir.

Azərbaycan regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirir. Biz sülhdən danışmaq istəyirik. Sahibə Qafarova bildirib ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında üçüncü üçtərəfli görüş keçirilib. Azərbaycan tərəfindən sülh sazişinin imzalanması üçün məqsədyönlü addımlar atılır. Ümidvarıq ki, Ermənistan da öz öhdəliklərini yerinə yetirəcək, konstruktiv yanaşma nümayiş etdirəcəkdir. Postmünaqişə dövründə Cənubi Qafqazda əməkdaşlıq üçün yeni imkanlar yaranıb. Zəngəzur dəhlizi, əldə edilmiş razılaşmalara uyğun açılacaq yeni nəqliyyat infrastrukturu bölgənin simasını tamam dəyişəcək. Avropa ölkələri, o cümlədən Slovakiya bu nəqliyyat infrastrukturundan faydalana bilər və yeni bazarlara çıxış əldə edə bilərlər.

Spiker bir daha vurğulayıb ki, Slovakiya nümayəndə heyətinin bu səfəri parlamentlərarası münasibətlərimizin inkişafında yeni bir səhifə açacaq.

Göstərilən yüksək qonaqpərvərliyə və səmimi görüşə görə minnətdarlığını bildirən Slovakiya Respublikası Milli Şurasının spikeri Boris Kollar ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. O, Slovakiyanın Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb. Bildirilib ki, siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələrimizin daha da inkişafı ümumi mənafelərimizə xidmət edir. Parlamentlər səviyyəsində əlaqələrin daha da dərinləşməsi həyatın digər sahələrində əməkdaşlığa da öz müsbət təsirini göstərəcəkdir.

Slovakiyalı spiker ölkəmizə səfəri çərçivəsində Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə, o cümlədən Şuşa şəhərinə səfər etdiklərini bildirərək, səfər təəssüratları haqqında öz yüksək fikirlərini bölüşüb, bu ərazilərdə aparılan quruculuq, bərpa işlərini təqdir edib. Boris Kollar aparılan bərpa işləri çərçivəsində bu torpaqların minalardan təmizlənməsi məsələsinin əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, Azərbaycanla əməkdaşlığı dərinləşdirmək üçün mövcud imkanlardan xalqlarımızın rifahı naminə istifadə olunmalıdır.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər haqqında da danışılıb.

Görüşdə Slovakiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anar Məmmədov, qrupun üzvləri Sədaqət Vəliyeva, Arzu Nağıyev, Malik Həsənov, ölkəmizin Slovakiyadakı səfiri Rövşən Sadıqbəyli, Slovakiyanın Azərbaycandakı səfiri Milan Layçak və digər rəsmi şəxslər iştirak ediblər.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Slovakiya Milli Şurasının Sədri Şəhidlər xiyabanını ziyarət edib

Ölkəmizdə səfərdə olan Slovakiya Milli Şurasının Sədri Boris Kolların rəhbərlik etdiyi parlament nümayəndə heyəti iyunun 13-də Şəhidlər xiyabanını ziyarət edib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Şəhidlər xiyabanına gələn Boris Kolların rəhbərlik etdiyi parlament nümayəndə heyəti ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Burada Boris Kollar media nümayəndələrinə müsahibə verib, ölkəmizə səfəri barədə onların suallarını cavablandırıb.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Adil Əliyev, Slovakiya ilə parlamentlərarası dostluq qrupunun rəhbəri Anar Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

Vətən müharibəsində qazanılan tarixi Zəfər Azərbaycanın ərazi bütövlüyünü təmin etməklə yanaşı, respublikamızın, ümumilikdə isə Cənubi Qafqazın təhlükəsizliyinə təhdidləri aradan qaldırdı. Artıq bölgədə sabit təhlükəsizlik sistemi formalaşır və o, davamlı şəkildə möhkəmlənir.

Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlər, imzalanan sənədlər və sazişlər Azərbaycanın müəyyənləşdirdiyi yeni geosiyasi reallıqlarda respublikamızın mövqeyini və şəriksiz liderliyini daha dayanıqlı edir. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanan Şuşa Bəyannaməsi isə bu kontekstdə xüsusi əhəmiyyət daşıyır.

**Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi general-polkovnik Ramil USUBOV** qəzetimizə müsahibəsində imzalanmasının birinci ildönümü tamam olan bəyannamənin ölkəmizin və bölgənin təhlükəsizlik sisteminə göstərdiyi təsirlər və digər aktual proseslərlə bağlı fikirlərini bölüşür.

# Azərbaycan bölgədə təhlükəsizlik sisteminin ən mühüm tənzimləyici amilidir



***Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi general-polkovnik Ramil USUBOV:***

## "Prezident İlham Əliyev Cənubi Qafqazın təhlükəsizlik sistemini yenidən qurur, onu sağlam əsaslarla formalaşdırır və bölgənin iqtisadi, sosial inkişafı üçün etibarlı zəmin yaradır"

***- Ramil müəllim, tariximizin mühüm əlamətdar məqamlarından olan Qurtuluş gününü indi həm də Şuşa Bəyannaməsinin ildönümü ilə birgə qeyd edirik. Qurtuluşdan Zəfərə doğru gedilən yol və onun nəticələrindən olan bu bəyannamə Azərbaycanın təhlükəsizlik sistemində hansı həlledici rola malikdir?***

- Öncə oxucularınızı Qurtuluş günü münasibətilə təbrik edirəm. Bu möhtəşəm gün özünün 29-cu ildönümündə də misilsiz əhəmiyyətini, böyük tarixi təsirini qoruyub saxlayır.

Xaosdan, başıpozuqluqdan sabitliyə, siyasi və iqtisadi böhrandan inkişafa, gerçək müstəqilliyə doğru keçidin başlanğıcı olan Qurtuluş günü Heydər Əliyev-Xalq vəhdətinin, birliyinin təcəssümü idi. İndi tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan da məhz Qurtuluş missiyasının parlaq nəticəsidir.

Ulu Öndərin Qurtuluş missiyasının məntiqi davamı isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin güclü sərkərdəlik bacarığı sayəsində əldə olunan böyük Zəfərdir. Qurtuluşdan Zəfərə doğru xalqımız, Silahlı Qüvvələrimiz Heydər Əliyev irsinə sədaqətlə, Prezident İlham Əliyevin rəhbərliyi altında çətin, məsuliyyətli və şərəfli yolla irəlilədi, ikiəsrlik münaqişəyə, 30 illik işğala son qoydu, Ulu Öndərın tarixi vəsiyyətini layaqətlə icra etdi.

Sualınıza gəlincə isə, qeyd edim ki, Qurtuluş məhz milli təhlükəsizlik sisteminin tam miqyasda formalaşmadığından tarixi zərurət kimi meydana çıxdı. 1993-cü ilədək olan dövrdə təhlükəsizliyin bütün istiqamətləri üzrə - yəni hərbi, siyasi, iqtisadi, sosial, informasiya, ekologiya, qida və digər sahələrdə təhlükəsizliyə ciddi təhdidlər vardı, daha doğrusu, yeni müstəqillik qazanmış ölkədə möhkəm və sabit təhlükəsizlik sistemi, ümumiyyətlə, yox idi. Xalqımız Heydər Əliyevi Qurtuluş missiyası ilə hakimiyyətə ölkədə təhlükəsizliyi təmin etmək məqsədilə çağırmışdı. Çünki təhlükəsizliyin, sabitliyin olmadığı yerdə nə inkişafa nail oluna bilərdi, nə müstəqillik qorunardı, nə də dövlətçilik formalaşardı. Ulu Öndər də fəaliyyətinin əsas hədəfi kimi bu çətin vəzifəni böyük ustalıq və müdrikliklə həyata keçirdi.

Möhtərəm Prezident İlham Əliyev isə Qarabağın işğalını milli təhlükəsizliyin əsas təhdidi kimi xarakterizə edərək, tarixi ərazilərimizin Ermənistanın işğalından azad edilməsini mühüm hədəf kimi müəyyənləşdirmişdi. Cənab Prezident bu taleyüklü vəzifəni möhtəşəm liderlik məharətilə cəmi 44 gün ərzində reallaşdırdı.

Beləliklə, müstəqil Azərbaycanın milli təhlükəsizlik sisteminin yaranması prosesində Qurtuluş missiyası möhkəm bünövrə və uğurlu başlanğıc oldu. Tarixi Zəfər isə bu sistemin son hədəfini gerçəkləşdirərək, onun tamlığını təmin etdi.

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması ilə yaranan yeni hərbi-siyasi reallıq Azərbaycanın milli təhlükəsizlik sisteminin təməl hədəflərini həyata keçirməklə yanaşı, onu müasir dövrün çağırışlarına uyğun olaraq daha təkmil şəkildə möhkəmləndirmək mərhələsini başlatdı. Təcavüzə məruz qalan ölkədən qalib dövlətə keçidin məntiqi nəticəsi kimi möhtərəm Prezident tərəfindən təhlükəsizlik konsepsiyasında da yeni vəzifələr, istiqamətlər, hədəflər, məsuliyyətlər müəyyənləşdirilir. Şuşa Bəyannaməsi də bu kontekstdə xüsusilə fərqlənir və təhlükəsizlik sisteminin dayanıqlığının möhkəm təməllərindən biri kimi dəyərləndirilir.

***- Ötən bir il ərzində Şuşa Bəyannaməsinin icrası prosesi necə həyata keçdi?***

- Azərbaycanın müstəqilliyini beynəlxalq miqyasda ilk tanıyan dövlət olan Türkiyə ilə indiyədək istisnasız olaraq, bütün sahələr üzrə çoxsaylı əməkdaşlıq sənədləri imzalanıb və onlar uğurla icra olunur. Ulu Öndərin böyük səyləri ilə 1994-cü ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə" və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol" dövlətlərarası münasibətlərin sağlam əsaslarla inkişafına rəvac verdi. 2010-cu ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə" prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın timsalında xalqlarımızın, dövlətlərimizin dünyada bənzəri olmayan dostluq və qardaşlıq münasibətlərinin inkişafının yeni parlaq göstəricisi oldu.

Şuşa Bəyannaməsi isə Azərbaycanın təhlükəsizlik sisteminin formalaşmasında uzun müddətdir mühüm qardaşlıq və strateji tərəfdaşlıq yardımı göstərən Türkiyə ilə imzalanan, təhlükəsizlik və hərbi sahədə əməkdaşlığı daha üst səviyyəyə qaldıran, indiyədək həyata keçirilən müştərək tədbirlərin və ümumilikdə fəaliyyətin miqyasının daha da genişlənməsini vacib sayan əsas çərçivə sənədlərindən biridir. O, iki dövlətin, iki Prezidentin müxtəlif sahələr üzrə, xüsusən hərbi təhlükəsizlik sahəsində fəaliyyət istiqamətlərini, hədəflərini bəyan edən ali səviyyəli sənəddir.

Müharibəyə qədərki dövrdə Türkiyənin Azərbaycandakı hərbi-təhlükəsizlik sahəsində təmsilçiliyi yalnız birgə təlimlərdə iştirak, hərbi kadrların və müdafiə sənayesi potensialının, arsenalının təkmilləşməsinə yardım idi. Savaş müddətində isə qardaş ölkə haqq işimizə birmənalı mənəvi, siyasi, diplomatik dəstək göstərməklə yanaşı, öz hərbi sənayesinin modern qurğuları ilə də qələbəmizə töhfə verdi. Türkiyənin bölgədə daha fəal hərbi-təhlükəsizlik təmsilçiliyi artıq zərurətə çevrildi. Bu məqam Ermənistanın təslimçilik aktı kimi tarixə düşən üçtərəfli razılaşma sənədində "sülhməramlı mərkəz" statusunda xüsusi müddəa ilə təsdiq olundu.

Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti Şuşa Bəyannaməsində təqdir edilib, bu sahənin mütəxəssisləri, rəsmi qurumlar tərəfindən də razılıqla qarşılanıb. Həmçinin bəyannamə imzalanandan sonra ölkəmizdə Türkiyə Silahlı Qüvvələrini təmsil edən Xidmət Qrupu fəaliyyətə başlayıb.

İki dövlətin hərbi-təhlükəsizlik əlaqələrini fəaliyyət prioritetlərindən biri kimi elan edən Şuşa Bəyannaməsi həm də bu sahədəki əməkdaşlığın genişlənməsini konkret vəzifə kimi müəyyənləşdirib. Bu istiqamətdə ötən dövrdə səmərəli, qürurdoğurucu nəticələr əldə olunub. Ötən ayın sonunda Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı bu əməkdaşlığın bir qismini nümayiş etdirən mühüm tədbir idi. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan çıxışlarında bir daha vurğuladılar ki, gündən-günə daha da güclənən əlaqələr bir bölgə ilə məhdudlaşmır, ümumilikdə qlobal təhlükəsizlik sisteminin möhkəmlənməsinə iki dövlətin töhfəsidir.

***- Şuşa Bəyannaməsində belə bir müddəa var: "Tərəflərin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcəkdir və bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcəkdir". Bu sahədə fəaliyyət necə gedir?***

- Bu istiqamətdə fəaliyyət hər iki ölkə rəhbərinin koordinasiyası və müvafiq tapşırıq, göstərişləri əsasında uğurla həyata keçirilir. Davamlı məsləhətləşmələr, qərarların uyğunlaşdırılması, qarşılıqlı anlaşma kimi mühüm əhəmiyyət kəsb edən proseslər olduqca çevik və səmərəli mexanizm əsasında yürüdülür.

Azərbaycan və Türkiyə Təhlükəsizlik şuraları arasında əməkdaşlığa gəlincə isə, qeyd edim ki, bu münasibətlər ölkə başçılarının rəhbərliyi altında düzgün və məhsuldar məcrada davam edir. Şuşa Bəyannaməsi isə qurumlarımız qarşısında yeni vəzifələr müəyyənləşdirib. Biz hər iki Prezidentin bilavasitə əlaqələndirməsi ilə qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin artırılması üçün mütəmadi məsləhətləşmələr aparır, görüşlər təşkil edirik.

Ötən ilin sonlarında Türkiyə Respublikası Milli Təhlükəsizlik Şurasının baş katibi Seyfullah Hacımüftüoğlunun dəvəti ilə Ankaraya səfərimiz oldu. Azərbaycan Prezidentinin tapşırığı ilə dövlətlərarası və regional təhlükəsizlik məsələlərinin ən aktual gündəm mövzularını həmkarımla müzakirə etdim. Səfər müddətində keçirilən bütün görüşlərdə dost və qardaş ölkələrimiz arasında siyasi, iqtisadi, hüquqi və təhlükəsizlik sahələrində əlaqələrin ən yüksək səviyyədə olduğu, regionda sülhün, əmin-amanlığın möhkəmlənməsinə xidmət etdiyi vurğulandı. Dövlət başçılarının qardaşlıq, dostluq münasibətlərinin hər iki ölkə arasında əməkdaşlığa böyük töhfələr verdiyi ortaq qənaətimiz idi.

Ötən ay isə Türkiyə Respublikası Milli Təhlükəsizlik Şurasının baş katibi Seyfullah Hacımüftüoğlunun ölkəmizə səfəri baş tutdu. Görüşümüzdə Şuşa Bəyannaməsi ilə ölkələrimiz arasındakı əməkdaşlıq münasibətlərində yeni səhifənin açıldığı, sənədin müddəalarından irəli gələn vəzifələrin həyata keçirilməsi sahəsində vəziyyət və perspektivlər barədə geniş müzakirələr apardıq. Qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərin bu gün hər iki ölkənin prezidentlərinin liderlikləri ilə müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə yüksəlməsi qarşımızda daha məsuliyyətli vəzifələr müəyyənləşdirir. Səfərimiz zamanı "Azərbaycan Respublikası Təhlükəsizlik Şurası Katibinin Xidməti və Türkiyə Respublikası Milli Təhlükəsizlik Şurasının Baş Katibliyi arasında Anlaşma Memorandumu" imzalandı.

***- Ramil müəllim, bu sahədə əməkdaşlıq, eləcə də Şuşa Bəyannaməsi qlobal təhlükəsizlik sisteminin möhkəmlənməsinə necə təsir edir?***

- Türkiyə ilə təhlükəsizlik sahəsində əməkdaşlıq Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin - yeni çağırışlara uyğunlaşdırılan təhlükəsizlik konsepsiyasının ana xətlərindən birini təşkil edir. Yəni regional və qlobal təhlükəsizlik sistemində Azərbaycanın fəal iştirakını təmin edən konsepsiyasının icrasında rəsmi Ankara ilə birgə vahid mövqe, vahid fəaliyyət, vahid hədəflər müəyyənləşdirilir və prosesin icrasında effektiv nəticələr əldə olunur. Bu həm də Şuşa Bəyannaməsinin müddəalarından irəli gələn məsələdir.

Şuşa Bəyannaməsi regional, qlobal təhlükəsizliyin təminində birgə fəaliyyətin "yol xəritəsi"dir və daim yeni yanaşmalar tələb edir. Bu yöndə həyata keçirilən tədbirlər, müəyyənləşən hədəflər Azərbaycanla Türkiyənin daha da güclənən dövlətçilik qüdrətinə uyğun davamlı olaraq təkmilləşir.

Türkiyə indi Suriyadan Liviyayadək, Aralıq dənizindən okean körfəzlərinədək böyük coğrafi məkanda qlobal təhlükəsizliyin təmininə öz töhfələrini verir, hərbi-siyasi iştirakı ilə bu qaynar bölgələrdə sülhyaratma missiyası həyata keçirir. Azərbaycan Respublikası da beynəlxalq təhlükəsizliyin əsas təhdidləri olan qlobal terrorizmə, transmilli cinayətkarlığa qarşı səmərəli mübarizə aparır, müxtəlif münaqişə bölgələrində hərbi kontingenti ilə sülhməramlı fəaliyyət göstərir. Yəni hər iki dövlətin qlobal təhlükəsizliyin təminində müstəsna xidmətləri vardır.

Sadəcə bir fakta nəzər salmaq istərdim. ABŞ Prezidenti Cozef Bayden son üç ayda ölkə rəhbərimizə ünvanladığı hər üç məktubunda Azərbaycanın qlobal, xüsusən də Avropa məkanında təhlükəsizliyin sabitləşməsində həlledici rolunu vurgulayıb. Bu cür fikirlər, rəylər beynəlxalq miqyasda ən üst səviyyələrdə davamlı olaraq bəyan edilir. Bunlar, şübhəsiz ki, Prezident İlham Əliyevin böyük uzaqgörənliklə və müdrikliklə həyata keçirdiyi təhlükəsizlik konsepsiyasının nəticələridir.

***- Yeri gəlmişkən, postmüharibə dövründəki diplomatik uğurlar son razılaşma sənədinin - sülh müqaviləsinin imzalanması və bölgədə təhlükəsizliyin tam təmini imkanlarını artırırmı?***

- Ermənistanın təslimçilik aktını imzalamasından sonra Azərbaycan və Ermənistan rəhbərləri arasında Rusiya, Avropa İttifaqı Şurası və Fransa prezidentlərinin təşəbbüsü ilə real və onlayn formatda 7 görüş keçirilib. Fakt odur ki, danışıqların və sülh gündəliyinin məzmununu birmənalı olaraq cənab İlham Əliyev müəyyən edir. Müzəffər Komandan danışıqlar masasında da çevik və zəngin diplomatik məharəti ilə regionda yaratdığı yeni reallıqların prinsiplərini, Azərbaycanın milli maraqlarını tam ifadə edir. Hər görüşə Prezident İlham Əliyev konkret və dəyişməz şərti ilə gedir. Artıq müzakirələrdə cənab Prezidentin tələbi ilə "Dağlıq Qarabağ münaqişəsi", "status" kimi ifadələrdən istifadə edilmir, yəni onlar tarixin arxivinə gömülüb.

Vətən müharibəsindəki zəfəri postmüharibə dövründə diplomatik qələbələrlə davam etdirən Azərbaycan Prezidenti regionda sülhün, təhlükəsizliyin və inkişafın təmin olunmasına dair təkliflərini təqdim edib. Bölgədə sülh və etimadın təşviqi, I Qarabağ müharibəsində itkin düşmüş şəxslərin müəyyənləşməsi, ərazilərin minalardan təmizlənməsi, kommunikasiya-nəqliyyat xətlərinin açılması və müvafiq infrastrukturun yaradılması, gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı fəaliyyət əsasında təmin olunması, ərazidə reabilitasiya və rekonstruksiya işlərinin aparılması, birgə iqtisadi əməkdaşlıq platformasının yaradılması və digər bu kimi məsələlər danışıqların mühüm mövzularıdır.

Ancaq indi ilkin hədəf sülh müqaviləsi üzrə danışıqlara başlamaq və sərhədlərin delimitasiya-demarkasiyası ilə bağlı müzakirələri keçirməkdir. Artıq müvafiq dövlət komissiyasının tərkibi hər iki tərəfdə təsdiq olunub və sərhəd ərazisində ilk görüş keçirilib. Düzdür, Ermənistan bir neçə ay bu görüşü ləngitdi, danışıqlardan yayındı, ancaq nəticə etibarilə müzakirə masasına oturmağa məcbur oldu.

Növbəti mərhələ Zəngəzur dəhlizinin açılmasıdır ki, artıq İrəvan burada da maneə yaratmaq imkanlarını itirir. Bu prosesdə də möhtərəm Prezidentin yüksək diplomatik məharəti əsas rol oynayır. Onun təşəbbüsü ilə İranla imzalanan anlaşma memorandumu əsasında, İran-Ermənistan sərhədindən 5 kilometr cənubdan keçərək Şərqi Zəngəzur ilə Naxçıvanı birləşdirən yeni nəqliyyat qovşağı çəkiləcək. Dəmiryol xəttindən, çoxzolaqlı avtomobil şosesindən, elektrik enerji ötürmə xətlərindən, rəqəmsal rabitə və başqa elementlərdən ibarət olacaq yeni nəqliyyat arteriyası Zəngəzur dəhlizi ilə bağlı Ermənistanın manevrlərini tam əhəmiyyətsiz edir. Ermənistan hakimiyyəti belə düşünür ki, yeni nəqliyyat qovşağı məsələsində guya üstün mövqedədir və şərtləri o diktə etməlidir. Ancaq möhtərəm Prezidentimiz cəmi 5 kilometr coğrafi fərqlə bu nəqliyyat qovşağının istifadəyə veriləcəyini bəyan etdi və Ermənistan növbəti dəfə hesablarında yanıldı.

Prezident İlham Əliyev Naxçıvana açılacaq birbaşa quru yol dəhlizinin alternativ variantı ilə sübut etdi ki, Cənubi Qafqazda əsas güc mənbəyi, söz sahibi Azərbaycandır və heç bir maneə onu hədəflərindən çəkindirə bilməz. Ölkəmiz indi Ermənistanı qlobal layihələrdə iştirak imkanından növbəti dəfə təcrid edə bilər. Bu, İrəvanın son şansıdır və o, bu layihədən kənarda qalmaqla iqtisadi-sosial böhrandan xilas üçün yeganə imkanı da itirmiş olacaq.

Bölgədə formalaşan yeni təhlükəsizlik arxitekturasında cənab Prezident alternativ variantlar vasitəsilə sabitlik və inkişaf prosesini həm nə vaxtsa yaranacaq risklərdən qoruyur, həm də Azərbaycanın mürəkkəb situasiyalarda çoxgedişli manevr imkanlarını artırır.

Bu kontekstdə Azərbaycan Prezidentinin müdrik diplomatik bacarığının daha bir nümunəsi olan sənədə toxunmaq istərdim. Dövlət başçımızın cari ilin fevralında Rusiya Prezidenti ilə imzaladığı "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" dövlətlərarası münasibətləri regional və beynəlxalq təhlükəsizliyin, sabitliyin təmin edilməsinə və möhkəmləndirilməsinə töhfə verəcək keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırdı. Rusiyanın bölgəmizdə oynadığı rolu, tutduğu strateji mövqeyi nəzərə alsaq, bu fövqəldövlətin qlobal və regional miqyasda sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi məqsədilə Azərbaycanla qarşılıqlı fəaliyyət göstərəcəyi öhdəliyini götürməsi böyük diplomatik nailiyyətdir.

***- Bu prosesdə Ermənistanın özünü hələ ki kənarda saxlaması ona nə vəd edir? Həm də bu ölkənin əməkdaşlıqdan çəkinməsi ümumilikdə bölgənin sabit və davamlı inkişafına maneə yaradırmı?***

- Elə son həftələrdə bu ölkə rəsmilərinin müxtəlif müzakirə masalarında və sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı danışıqlarda iştirakı göstərir ki, onlar güzəşt limitinin tükəndiyini anlayırlar.

Süni maneələr yaradan Ermənistanın əsassız iddialardan əl çəkməkdən, regional əməkdaşlıqdan başqa yolu yoxdur. Müharibədəki sarsıdıcı məğlubiyyət Ermənistanın iqtisadi-sosial durumunu tam iflasa sürükləyib, bu dövlətdə daxili siyasi vəziyyət az qala vətəndaş müharibəsi həddinə çatıb. Digər tərəfdən, sülh danışıqlarına etiraz məqsədilə aksiyalar təşkil edən müxalifətin öz məqsədinə çatmayacağı aydın olunca, onlara qoşulanların sayı getdikcə azalır. Həm də bu mitinqlərdə iştirak edənlərin əksəriyyəti yalnız ölkədəki acınacaqlı sosial duruma etirazlarını bildirirlər. Görünən odur ki, Ermənistan cəmiyyətində sülh danışıqlarına həm istək, həm də dəstək var.

Unudulmamalıdır ki, erməni xalqı ötənilki seçkilərdə "müharibə partiyası - hərbi xunta"nı təmsil edən müxalifətə yox, Azərbaycanla danışıqlara başlayacağını bəyan edən hakimiyyət partiyasına etimad göstərdi. Xalq Paşinyana mandatı məhz Azərbaycanla sülh müqaviləsi bağlamaq üçün verib, yəni erməni xalqı düşmənçilikdən bezib, çörək, iş və sabitlik istəyir.

Prezident İlham Əliyevin Cənubi Qafqazda formalaşdırdığı yeni təhlükəsizlik sistemində bütün dövlətlərin və xalqların rifahının qorunacağı, inkişafının təmin ediləcəyi, gələcəyi üçün risklərin olmayacağı Ermənistan əhalisinə yaxşı məlumdur. Qarabağın işğal altında olduğu 28 il ərzində orada olan bərəkətli torpaqlardan, zəngin təbii sərvətlərdən 20-30 hərbi cinayətkardan başqa, erməni xalqı nə xeyir gördü ki?! Qarabağda məskunlaşan, Ermənistanda yaşayan əhalinin sosial vəziyyəti bu illərdə günü-gündən pisləşdi, səfalətə sürükləndi.

Ancaq indi onların müqayisə imkanları vardır. 28 il talan edilən, daşı daş üstündə qalmayan ərazilər ötən ilyarımda Qafqazın ən nəhəng inşaat meydanına çevrilib, beynəlxalq hava limanları tikilir, müasir yollar, kilometrlərlə uzanan modern tunellər inşa olunur, "ağıllı kəndlər" salınır.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ və Şərqi Zəngəzurda tarixi irs bərpa edilir, bölgənin mədəni-mənəvi inciləri yenidən həyata qayıdır, məktəblər, xəstəxanalar, sosial-humanitar infrastrukturlar inşa olunur. İşğalın amansız terroruna məruz qalan Şuşada məhz bu himayənin və qayğının nəticəsində indi elə bir həftə yoxdur ki, beynəlxalq tədbir, festival, görüş keçirilməsin.

Qarabağın və Şərqi Zəngəzurun hər qarışında quruculuq, intibah və təhlükəsizlik bərqərar olur. Orada insanların istifadə edəcəyi bütün infrastrukturların normativləri, əslində, zamanı qabaqlayır və sabahın texnologiyalarına uyğunlaşdırılır.

Bunları Azərbaycan dövləti edir və ermənilərə də deyilir ki, gəlin, bu inkişafın, təhlükəsiz həyatın bir parçasına çevrilin.

Cənab İlham Əliyev bölgədə ədaləti və təhlükəsizliyi təmin etdi. Onun qurucu, yaradıcı missiyası isə Cənubi Qafqazda tərəqqinin və sabitliyin yeganə təminatçısıdır.

Qərb ölkələrinin bölgədə həlledici amil kimi dəyərləndirdikləri Azərbaycan və onun qüdrətli Lideri öz uğurlu təşəbbüsləri ilə Avrasiya məkanının enerji, nəqliyyat, logistika təhlükəsizliyini yaradır, mühüm geostrateji əhəmiyyətə malik qlobal layihələrə müəlliflik edir.

İkiəsrlik münaqişəni 44 gündə həll edən Müzəffər Ali Baş Komandan indi Azərbaycanın inkişafının, təhlükəsizliyinin əsrlər boyu davam edəcək möhkəm təməlini formalaşdırır. 29-cu ildönümünü qeyd etdiyimiz Qurtuluşun ən böyük həqiqəti, təntənəsi də budur!

*Müsahibəni apardı:*
**İxtiyar HÜSEYNLİ,**
*"Azərbaycan"*



# Qardaşlığın zirvəsi

## Cənubi Qafqazın yeni təhlükəsizlik konsepsiyası sayılan Şuşa Bəyannaməsinin imzalanmasından bir il ötür

**İyunun 15-də iki qardaş ölkə - Azərbaycanla Türkiyə arasında tarixi Şuşa Bəyannaməsinin imzalanmasının bir ili tamam olur.**

Prezidentlər İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın imza atdığı bu bəyannamə bu il fevralın 1-də Azərbaycan parlamenti, fevralın 4-də isə Türkiyə Böyük Millət Məclisi (TBMM) tərəfindən ratifikasiya olunub.

Bəyannamənin mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanması tarixi hadisə idi. Çünki tarixi köklərə dayanan əlaqələr Şuşa Bəyannaməsi ilə bir daha təsdiqini tapdı. Vətən müharibəsinin başladığı ilk günlərdən Türkiyənin Azərbaycanın yanında olduğunu elan etməsi, ölkəmizə birmənalı dəstəyi bu tarixi sənədlə strateji müttəfiqlik zirvəsinə daşındı. Bəyannamə Azərbaycan və Türkiyə arasında ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki müttəfiqlik, əlaqələrin genişləndirilməsi, imkan və potensiallarının birləşdirilməsini nəzərdə tutur.

Tarixi gündə imzalanan mühüm sənədin əhəmiyyətini dəyərləndirən ekspertlər də birmənalı şəkildə qeyd edirlər ki, iki qardaş ölkə arasındakı münasibətlər bu gün ən uca zirvəyə yüksəlib.

### Münasibətlər hər sahədə yüksək səviyyəyə çatıb

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə qəzetimizə açıqlamasında deyib ki, Şuşa Bəyannaməsi Azərbaycan Türkiyə münasibətlərinin yeni, daha yüksək zirvəsidir. Deputatın sözlərinə görə, bu bəyannamə hər iki ölkənin münasibətlərinin möhkəm qardaşlıq, müttəfiqlik, bütün məsələlərin birgə həlli praktikasıdır: "Vətən müharibəsində qələbə qazanmağımızda Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstək verməsinin çox böyük əhəmiyyəti var idi. Bu sənədlə isə dövlətlər arasında münasibətlər hər sahədə daha yüksək səviyyəyə çatıb".

Aydın Mirzəzadə vurğulayır ki, Azərbaycan və Türkiyə son 30 il ərzində çoxsaylı nümunələrlə dostluq və qardaşlıqlarını sübut edə biliblər. Bəyannamədə bu nüansların qeyd edilməsi iki dövlət arasında münasibətlərin daha da dərinləşdiyini və bunun sonrakı əlaqələr üçün əsas olduğunu göstərir. Eyni zamanda müqavilədən ötən bir il ərzində də bu müttəfiqlik özünü müxtəlif sahələrdə göstərib və göstərməkdə davam edəcək.

Deputat sənəddə nəzərdə tutulan hərbi təhlükəsizlik məsələlərindən də söz açıb. O qeyd edir ki, sənəddə nəzərdə tutulduğu kimi iki ölkənin müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsi, birgə təlimlərin keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması həyata keçirilir. Eyni zamanda iki qardaş ölkənin silahlı qüvvələrinin müasir standartlara uyğun olaraq yenidən formalaşdırılması istiqamətində birgə işlər görülür.

### Qardaşlıq hisslərinə dayanan müttəfiqlik

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Sahib Alıyev qeyd edib ki, Şuşa Bəyannaməsinin kökündə Azərbaycan-Türkiyə təbii müttəfiqliyi durur, amma müttəfiqlik bu bəyannamə ilə başlamayıb.

Deputat vurğulayır ki, bir xalqın digərinə yanaşması sənədlərdə qeyd olunmaqla formalaşmır. İlk növbədə həmin xalqların bir-birinə necə yanaşması, həmin dövlətlərə rəhbərlik edənlərin həmin ölkənin xalqlarına, həmkarlarına necə yanaşmasından qaynaqlanır. Azərbaycanda Türkiyə bayrağı, dövlət rəmzlərinə, o cümlədən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana münasibətin necə olduğu heç kəsə sirr deyil.

Deputat bu müttəfiqliyin kökündə qardaşlıq hissinin dayandığını deyir: "Bəyannamədən ötən bir il göstərdi ki, müttəfiqliyimiz başqa reallığı da üzə çıxarıb. Azərbaycanın işğaldan azad edilən torpaqlarında - Qarabağda, Şərqi Zəngəzurda yeni region qurulur və bu regionda Azərbaycanla Türkiyənin iradəsi, istəyi xaricində başqa nəsə reallaşa bilməz. Bunu artıq qlobal güclər, regionun böyük dövlətləri də anlayırlar".

Sahib Alıyev Şuşanın həm də regiondakı geosiyasi mərkəz rolunu oynadığını vurğulayıb: "Təbii ki, bu birillik təcrübəyə dayanaraq bu sənədi alqışlayıram və bu müttəfiqliyin həmişə örnək səviyyədə saxlanılacağına əminəm".

### Bu sənəd Cənubi Qafqazda sülhə, ümumi rifaha mühüm töhfə verəcək

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşir oğlu Azərbaycan və Türkiyə əlaqələrini rəsmi müttəfiqlik münasibətləri kimi təsdiqləyən Şuşa Bəyannaməsindən 1 il ötdüyünü və bu sənədin imzalandığı günə qədər mövcud olan reallıqların rəsmi ifadəsi olduğunu qeyd edir.

Deputatın sözlərinə görə, bu tarixə qədər də Azərbaycanla Türkiyə arasında ən yaxın müttəfiqlik münasibətləri mövcud olub. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, dünyada Azərbaycan Türkiyə qədər bir-birinə səmimi dostluq, qardaşlıq münasibəti bəsləyən digər iki dövləti tapmaq qeyri-mümkündür. Azərbaycan və Türkiyə münasibətləri digər ölkələrin bir-biri ilə əlaqə qurması və inkişaf etdirməsi üçün örnəkdir. Elşad Mirbəşir oğlu hesab edir ki, ötən il imzalanan bəyannamə iki ölkə arasında mövcud olan münasibətlərdəki müttəfiqlik elementlərini rəsmiləşdirib. İki dövlət arasında əlaqələr həmişə bütün istiqamətlərdə dinamik inkişaf edib və bu münasibətlərin kökündə olduqca vacib elementlər dayanır. Bu elementlər ümumi tarix, mədəni identiklik, din amilləri ilə daha da zənginləşir.

Deputat xatırladıb ki, qardaş Türkiyə Ermənistanın işğalçılıq siyasətini dünyanın ən mötəbər tribunalarından daim pisləyib, bu işğalçılıq siyasətinə son qoymağa çağırıb. Azərbaycan da Türkiyənin maraqlarını öz maraqları kimi hər zaman inamla müdafiə edib: "Məsələn, 2019-cu ildə Şərq Tərəfdaşlığının 10 illiyinə həsr olunmuş tədbirdə Türkiyə tərəfi təmsil olunmurdu. Tədbirdə iştirak edən Azərbaycan Prezidenti həmin dövrdə Ermənistan Prezidenti Sarkisyanın Türkiyənin ünvanına səsləndirdiyi əsassız ittihamlara sərt şəkildə cavab verdi. Prezident İlham Əliyev bildirdi ki, Türkiyə burada təmsil olunmur, amma mən buradayam".

Deputat vurğulayır ki, Şuşa Bəyannaməsinin imzalanmasından sonra iki ölkə arasında münasibətlər yeni mərhələyə qədəm qoyub və bu sənəd bütün istiqamətlərdə əməkdaşlığı inkişaf etdirməklə yeni səhifə açıb. Xüsusilə təhlükəsizlik, hərbi əməkdaşlıq sahəsində yeni istiqamət üzrə addımlar atılır: "44 günlük Vətən müharibəsi dövründə qardaş Türkiyə Azərbaycana böyük səmimiyyətlə siyasi və mənəvi dəstəyini ifadə etdi. Bunun ardınca Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın da yeni perspektivlərini açmış oldu. Bu bəyannamə iki ölkənin ordusunda birgə təlimlərin keçirilməsi, Türkiyədəki təlimlərdə Azərbaycan hərbi heyətinin iştirak etməsi, gələcəkdə birgə təlimlərin daha geniş miqyasda təşkil olunması ətrafında müzakirələrin aparılması, müdafiə, hərbi-texniki əməkdaşlıq sahəsində Azərbaycan və Türkiyə münasibətlərinin yeni platforması rolunda çıxış etməkdədir".

Deputatin fikrincə, bu sənəd bütövlükdə Cənubi Qafqazın yeni təhlükəsizlik konsepsiyası kimi də qiymətləndirilə bilər, çünki regionda Azərbaycan və Türkiyə müttəfiqliyi prosesləri tam nəzarətdə saxlamağa, ədalətli məcraya yönəldərək inkişaf etdirməyə qadirdir. İki ölkə Cənubi Qafqazda hər zaman təhlükəsizliyi, əməkdaşlığı, sabitliyi təşviq edir, münasibətlərin Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə qalxması isə regionda sülhə, ümumi rifaha öz töhfəsini verəcək.

### Şuşa Bəyannaməsi ordunun döyüş potensialını artıracaq

Hərbi ekspert Ədalət Verdiyev qəzetimizə açıqlamasında deyib ki, tarixi Qars müqaviləsindən 100 il sonra imzalanan Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasında ən mühüm əhəmiyyətli sənəddir. Onun sözlərinə görə, müqavilə hər iki ölkə arasında birgə əməkdaşlığı, fəaliyyəti, siyasi əlaqələri, iqtisadi və hərbi əməkdaşlığı əhatə edir.

Şuşa Bəyannaməsi iki ölkə arasındakı münasibətləri hərbi müttəfiqlik səviyyəsinə qədər qaldırdı. Ekspert qeyd edir ki, sənəd Ermənistanda bu gün meydanlarda görünən revanşist qüvvələrdən tutmuş, bir çox qonşu və qeyri-regional dövlətlər üçün mühüm siqnal hesab edilə bilər: "Bu bəyannamə Azərbaycan ilə Türkiyə arasındakı münasibətləri, o cümlədən Azərbaycanın ərazi bütövlüyünün və onun sərhədlərinin toxunulmazlığı haqqında Türkiyənin daim Azərbaycanın yanında yer alacağı barədə beynəlxalq ictimaiyyəti də məlumatlandırır. Məhz Şuşa Bəyannaməsi sayəsində Azərbaycan Silahlı Qüvvələri bu gün Türkiyə ordu modelinə keçidi uğurla reallaşdırır".

Ədalət Verdiyev vurğulayır ki, Təhlükəsizlik şuralarının birgə iclas keçirmələri isə dünyada rast gəlinməyən unikal hadisədir: "Bundan başqa, Azərbaycan və Türkiyə arasında müdafiə sənayesi sahəsində ciddi addımlar atılır. Türkiyənin əldə etdiyi nailiyyətlərdən Azərbaycanın da müdafiə sənayesinin yararlanması gözlənilir. Artıq Türkiyə pilotsuz uçuş aparatlarının Azərbaycanda istehsalı barədə razılıq əldə olunub".

Hərbi ekspert bildirir ki, Şuşa Bəyannaməsi sayəsində Azərbaycan Silahlı Qüvvələri döyüş potensialını daha da artıracaq, regionda yaranmış yeni reallıqları rəqiblərə həzm etdirmək üçün daha geniş imkanlar əldə edəcək. Bunu may ayında keçirilən "TEKNOFEST Azərbaycan" festivalı da bir daha sübut etdi. Bəyannamə paralel olaraq bütün sahələrdə, o cümlədən Türkiyə və Azərbaycan ordularının imkanlarının birləşdirilməsini və inteqrasiyasını təmin edəcək.

İki qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, eyni zamanda 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiqliyi təsdiq edən Şuşa Bəyannaməsi "bir millət - iki dövlət"in bütün sahələrdə birliyini, müttəfiqliyini göstərir. 9 fevral 1994-cü ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutan tarixi sənəd müxtəlif adlar altında olsa da gələcəkdə də əhəmiyyətini itirməyərək Azərbaycan-Türkiyə qardaşlığının, müttəfiqliyinin daim zirvədə olacağının təsdiqidir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Xarici diplomatlar Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər ediblər




**On bir ölkə və dörd qitədən olan xarici diplomatlar Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər ediblər.**



Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AlDA) vasitəsilə Xarici İşlər Nazirliyi və ADA Universiteti nəzdində fəaliyyət göstərən İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma Proqramları tərəfindən birgə təşkil olunan "Əcnəbi Diplomatlar üçün Xarici Siyasət Proqramı - 2022" adlı beynəlxalq kursun iştirakçısı olan 14 xarici diplomat üçün Şuşa şəhərinə xüsusi səfər proqramı təşkil edilib.

Bu barədə AZƏRTAC-a ADA Universitetindən məlumat verilib. Bildirilib ki, səfər zamanı xarici qonaqlar işğaldan azad olunmuş ərazilərimizdə işğalın ağır nəticələri, Azərbaycan xalqının maddi-mədəni və tarixi irsinə qarşı törədilmiş soyqırımı fəaliyyəti nəticəsində dağıdılan yaşayış məskənləri və mədəni-tarixi nümunələrlə tanış olublar. Eyni zamanda Ermənistanın beynəlxalq hüquqa zidd və qeyri-insani fəaliyyəti nəticəsində vaxtilə işğal altında olan ərazilərdə ciddi mina təhlükəsinin olduğu və minalanmış ərazilərin dəqiq xəritəsinin Azərbaycan tərəfinə hələ də verilmədiyi, postmüharibə dövründə 200-dən artıq Azərbaycan vətəndaşının, o cümlədən uşaqların və jurnalistlərin mina qurbanları olduğu xarici diplomatların diqqətinə çatdırılıb.

Səfər müddətində Şuşada və yol boyunca işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma və genişmiqyaslı tikinti işləri ilə tanış olan qonaqlar aparılan fəaliyyətin həcmi və sürətini alqışlayıblar. Onlara torpaqların azad edilməsi ilə bu ərazilərin yenidən dünyanın iqtisadi, mədəni və turistik xəritəsinə geri qayıtdığı və bu günədək Azərbaycan hökumətinin bunun yeganə təminatçısı olduğu bildirilib.

Xarici diplomatlara işğaldan azad olunmuş ərazilərimiz, o cümlədən Şuşa şəhərinin Azərbaycan və Qafqazın ictimai-siyasi həyatında oynadığı rol haqqında geniş məlumat verilib. Qarabağ xanı Pənahəli Xan tərəfindən şəhərin əsasının qoyulmasının 270 illiyini qeyd etmək və aparılan quruculuq işlərini sürətləndirmək məqsədilə 2022-ci ilin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycanda "Şuşa ili" elan edildiyi bildirilib.

Beynəlxalq səviyyədə insan kapitalının inkişafı və əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyan proqramda 11 ölkədən (Albaniya, Burundi, Çad, Qabon, Qazaxıstan, Macarıstan, Mərakeş, Rumıniya, Paraqvay, Şri-Lanka və Konqo) 14 xarici diplomat iştirak edir. İki həftəlik builki proqram çərçivəsində iştirakçılar üçün Xarici İşlər Nazirliyini təmsil edən peşəkar diplomatlar, ADA Universitetinin mütəxəssis-müəllim heyəti, eləcə də Milli Məclisin deputatları, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, ARDNŞ, ANAMA, Qarabağ Dirçəliş Fondu, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, ASAN Xidmət və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi qurumların nümayəndələri tərəfindən təqdimat və mühazirələr təşkil olunur.

# Paraqvay Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib

İyunun 13-də Milli Məclisin deputatları Hikmət Məmmədov və Nəsib Məhəməliyev Paraqvay parlamentinin ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşüb.



Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Məmmədov qonaqları parlamentin spikeri Sahibə Qafarovanın adından salamlayıb, Paraqvayın Azərbaycanın haqlı mövqeyini, ərazi bütövlüyünü həmişə dəstəkləməsinə görə təşəkkürünü ifadə edib. Azərbaycanın Paraqvayla münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu bildirən Hikmət Məmmədov ölkəmiz haqqında, tarixi keçmişi və dövlətçilik ənənələri barədə qonaqlara məlumat verib.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Nəsib Məhəməliyev Azərbaycanın həmişə beynəlxalq hüquqa və universal dəyərlərə sadiq qaldığını bildirib. O, 44 günlük Vətən müharibəsində Azərbaycanın beynəlxalq, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq öz ərazilərini işğalçı Ermənistanın qoşunlarından azad etdiyini vurğulayıb.

Paraqvay parlamentinin Deputatlar Palatasının Xarici əlaqələr komissiyasının sədri və palatanın Paraqvay-Azərbaycan dostluq qrupunun sədri Valter Enrike Harms Sespedes və Paraqvay Respublikası Senatındakı Paraqvay-Azərbaycan dostluq qrupunun sədri Lukas Orlando Akino Xara Paraqvayın da öz tarixində ərazi itkiləri və təcavüzlərə məruz qalmasından söz açıblar, bu kontekstdə beynəlxalq hüquqa və ölkələrin suverenliyinə həmişə həssas yanaşdıqlarını, o cümlədən Ermənistanın təcavüzünə məruz qalanda da Azərbaycanın ərazi bütövlüyünü müdafiə etdiklərini, həmçinin Paraqvay parlamentində Xocalı soyqırımını tanıdıqlarını qeyd ediblər.

Paraqvaylı parlamentarilər Füzuli rayonuna və Şuşa şəhərinə səfərlərindən danışıblar, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında dağıntılar, eləcə də aparılan bərpa-quruculuq işləri ilə tanış olmalarından bəhs ediblər. Qonaqlar postmüharibə dövründə Azərbaycanın sülh təşəbbüsləri ilə çıxış etməsini yüksək dəyərləndiriblər və sülh danışıqlarının aparılmasını, regionda inteqrasiya proseslərini dəstəklədiklərini bildiriblər.

***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1720-VQD nömrəli və "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Uşaq hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1722-VQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894, № 12, maddə 1346) 73.2-ci maddəsində "əhalinin sosial müdafiəsi" sözləri "sosial xidmət" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800, № 12, maddə 1906; 2020, № 7, maddə 832, № 12 (I kitab), maddə 1424; 2021, № 4, maddə 308, № 6 (I kitab), maddə 541, № 7, maddə 711, № 8, maddə 894; 2022, № 1, maddə 11) aşağıdakı dəyişikliklər edilsin: 2.1. 61.5-ci maddədə "tərbiyə və müalicə, sosial müdafiə və digər müvafiq müəssisələrdən" sözləri "sosial xidmət müəssisələrindən" sözləri ilə əvəz edilsin; 2.2. 64.0.3-cü maddədə "müalicə, tərbiyə, əhalinin sosial müdafiəsi müəssisəsindən və digər analoji müəssisələrdən" sözləri "sosial xidmət müəssisələrindən" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr 1423, 1435; 2021, № 1, maddə 8, № 4, maddə 307, № 6 (I kitab), maddələr 556, 558, № 7, maddə 711, № 11, maddə 1206, № 12, maddə 1335) 362.3.4-cü maddəsində birinci halda "əhalinin sosial müdafiəsi" sözləri "sosial xidmət" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2022-ci il*

# "Əhalinin sağlamlığının qorunması haqqında" və "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq, "Hərbi qulluqçuların statusu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Avtomobil yolları haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "Psixiatriya yardımı haqqında", "Onkoloji yardım haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 200-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497; 1999, № 5, maddə 285; 2001, № 3, maddələr 141, 142, 143, 144, № 11, maddələr 672, 687, 693; 2002, № 5, maddələr 240, 244, № 6, maddə 328; 2003, № 6, maddə 256; 2004, № 4, maddə 199, № 6, maddə 396, № 7, maddə 507; 2006, № 2, maddə 66, № 12, maddə 1028; 2007, № 6, maddə 560, № 11, maddə 1052, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2009, № 2, maddə 46, № 12, maddə 949; 2010, № 11, maddə 962; 2011, № 2, maddələr 70, 71, № 7, maddə 616; 2012, № 6, maddə 510; 2013, № 11, maddələr 1285, 1305, 1316; 2015, № 2, maddə 104, № 4, maddə 345, № 6, maddə 681; 2016, № 2 (I kitab), maddə 189, № 4, maddə 658; 2017, № 6, maddə 1060, № 7, maddə 1262; 2019, № 2, maddə 180, № 9, maddə 1484; 2020, № 5, maddə 521, № 7, maddə 826, № 12 (I kitab), maddə 1425; 2021, № 6 (I kitab), maddə 542, № 8, maddə 897, № 11, maddə 1205) 12-ci maddəsinin ikinci hissəsində "müdafiə sistemi" sözləri "xidmət" sözü ilə əvəz edilsin.

**Maddə 2.** "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 569; 2011, № 11, maddə 990; 2012, № 5, maddə 407; 2016, № 4, maddə 659; 2020, № 7, maddə 828, № 12 (I kitab), maddə 1425; 2021, № 8, maddə 897) 35.1-ci maddəsində, 36.2-ci maddəsinin birinci və ikinci cümlələrində "tibbi yardım" sözləri "tibbi-sanitariya yardımı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 dekabr tarixli 692 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti haqqında Əsasnamə"də, 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda və 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 525-VIQD nömrəli Qanunun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 dekabr tarixli 692 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1242; 2009, № 2, maddə 66, № 12, maddə 996; 2013, № 9, maddə 1062; 2016, № 5, maddə 853; 2019, № 11, maddə 1722; 2021, № 8, maddə 982) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti haqqında Əsasnamə"nin 10.1-ci bəndində "tibbi-sanitar yardım" sözləri "tibbi-sanitariya yardımı" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419; 2019, № 5, maddə 847, № 12, maddə 1936; 2020, № 7, maddə 895, № 8, maddə 1036; 2021, № 6 (I kitab), maddə 566) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın 2.8.13-cü yarımbəndində "tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrində və digər analoji müəssisələrdə" sözləri "sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 90, № 11, maddə 1719; 2020, № 8, maddə 1039, № 12 (I kitab), maddə 1479; 2021, № 3, maddə 225, № 5, maddə 452, № 6 (I kitab), maddə 572, № 9, maddə 989, № 10, maddə 1103; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 31 may tarixli 1694 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın 7.1.66-cı və 7.3.25.13-cü yarımbəndlərinin "Tədbirin adı" sütununda "əhalinin sosial müdafiəsi" sözləri "sosial xidmət" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2022-ci il*

# Neftçala rayonunun Neftçala-Xol Qaraqaşlı-Şorsulu (7 km)-Həsənabad-Neftçala və Bankə-Beştalı avtomobil yollarının yenidən qurulması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Otuz səkkiz min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən, ümumi uzunluğu 10 kilometr olan Neftçala-Xol Qaraqaşlı-Şorsulu (7 km)-Həsənabad-Neftçala və Bankə-Beştalı avtomobil yollarının yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 3,9 milyon (üç milyon doqquz yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2022-ci il*

# "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; 2008, № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060, 1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781; 2018, № 2, maddə 217, № 5, maddə 932, № 10, maddə 1990; 2019, № 12, maddə 1953; 2020, № 3, maddə 228, № 6, maddə 690, № 8, maddə 1036; 2021, № 4, maddə 327, № 6 (I kitab), maddə 570, № 8, maddə 920) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.20-1-ci bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2022-ci il*



# Dövlət qəhrəmanlarına sahib çıxır

### Şəhid ailəsi və qaziyə diqqət davamlı və hərtərəflidir

Şəhid ailələri, müharibə əlilləri və bu kateqoriyadan olan digər şəxslərə maliyyə dəstəyinin göstərilməsi, onların mənzillərlə, minik avtomobilləri ilə təminatı, müalicəsi, sosial durumunun yaxşılaşdırılması istiqamətində görülən digər tədbirlər ardıcıl xarakter daşıyır. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, bu insanlar hərtərəfli sosial təminat sistemi ilə əhatə olunublar.

Aylıq təqaüd və digər sosial ödənişlərlə yanaşı, həmin vətəndaşların rifahının yaxşılaşdırılmasına xidmət edən bir çox sosial proqramlar həyata keçirilir ki, bunlardan da biri onların məşğulluq probleminin həllidir. Aktiv məşğulluq proqramlarında - özünüməşğulluqda, ödənişli ictimai işlərdə bu kateqoriyadan olan insanlara üstünlük verilir. Başqa sözlə, şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması üçün bu istiqamətdə mütəmadi iş aparılır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 2022-ci ilin 5 ayı ərzində 32 min işsiz və işaxtaran şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə edilib. Onlardan 14756 şəxs münasib işlərlə təmin edilib, 4697 şəxs kiçik bizneslərini yaratmaları üçün özünüməşğulluq proqramına cəlb olunub. Bu müddət ərzində agentlik tərəfindən həmçinin 1542 işsiz şəxs peşə hazırlığında iştirak edib. Onlar üçün işəgötürənlərlə əməkdaşlıq çərçivəsində müxtəlif peşə sahələri üzrə hazırlıq kursları təşkil edilib və məşğulluqlarının təmini üçün işlər aparılıb. Paralel olaraq yanvar-may aylarında 10 984 şəxs üçün peşəyönümü tədbirləri keçirilib.

Vətən müharibəsindən sonra səmərəli tədbirlərdən olan "Məşğulluq marafonu" da həyata keçirilir. Həmin marafon çərçivəsində şəhid ailəsi üzvlərinin və qazilərin məşğulluğu təmin edilir. Tədbir "Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında gerçəkləşir.

Ümumiyyətlə, həm Vətən müharibəsindən əvvəl, həm də sonrakı dövrdə şəhid ailələrinin, qazilərin daim dövlətin diqqətində olduğu, onların sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitlərinin yaxşılaşdırılması üçün bütün zəruri addımların atıldığı hamıya məlumdur. Bu, dövlət siyasətinin əsas prioritetlərindən sayılır.

Prezidentin 2021-ci il 25 yanvar tarixli sərəncamı ilə bu kateqoriyadan olanlara 2021-2025-ci illərdə 11 min mənzil və ya fərdi evin verilməsi nəzərdə tutulub. 2021-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə üç il əvvələ nisbətən 5 dəfə çox mənzilin verilməsi proqramı icra olunub. Xatırladaq ki, şəhid ailələri və müharibə əlillərinə 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev təqdim edilib. Həmçinin əlillərin avtomobillə təminatı işi də uğurla aparılır. Ötən il 164 nəfər müharibə əlili minik avtomobili ilə təmin olunub.

2021-ci ildə 3 min, 44 günlük Vətən müharibəsindən sonra isə 3500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlərlə təmin edilib.

Bunu Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov postmüharibə dövründə şəhid ailələri və müharibə əlillərinin mənzil və avtomobillə, sosial xidmətlərlə təminatı işlərinə dair keçirdiyi mətbuat konfransında bildirib. Vurğulanıb ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən dövrdə ümumilikdə 12500-dən çox şəhid ailəsi və müharibə əlilinə mənzil və ya fərdi ev verilib: "Dövlət başçısının 25 avqust 2021-ci il tarixli sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanları və onlardan şəhid olanların ailələri də mənzillə təmin olunur. Bu il artıq sosial cəhətdən həssas qruplardan olan ailələrə 500-dən çox mənzil verilib. Cari il ərzində ümumilikdə 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Müharibə əlillərinin avtomobillə təminatı tədbirləri çərçivəsində son 4 ildə 1450-dək, ümumilikdə ötən dövrdə 7400 müharibə əlili avtomobillə təmin edilib. Bu il müharibə əlillərinə 50, 44 günlük Vətən müharibəsindən sonra ümumilikdə 200, ümumilikdə ötən dövrdə 7400 avtomobil verilib".

Şəhid ailəsi üzvləri və qazilərin sağlamlığı da unudulmayıb. Postmüharibə dövründə 450-dən çox şəhid ailəsi və müharibə əlilinə sanatoriya-kurort və müalicə mərkəzlərinə yollayış verilib, 41 nəfər müharibə əlili peşə reabilitasiyasına cəlb edilib, 60 qazi üçün motivasiya düşərgələri təşkil olunub.

Həmçinin həssas əhali qruplarından olan şəxslər, o cümlədən qazilər tibbi, pedaqoji, idman, mədəniyyət və incəsənət, psixoloji, eləcə də digər sosial reabilitasiya xidmətlərinə cəlb ediliblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin bir çox çıxışlarında bu məsələyə toxunması onların vacibliyinə bir daha diqqət çəkir. Qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi şəhidlərimizin xatirəsinin bizim üçün nə qədər əziz, qazilərimizin nə qədər dəyərli olduğunu dönə-dönə təsdiqləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Abdulla ŞAHİD: "Azərbaycanın bölgədə dayanıqlı sülh quruculuğu səyləri təqdirəlayiqdir"



İyunun 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 76-cı sessiyasının prezidenti Abdulla Şahidlə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanın BMT çərçivəsində fəaliyyəti, beynəlxalq təşkilatın ixtisaslaşmış qurumları ilə əməkdaşlıq əlaqələri, gələcək fəaliyyət istiqamətləri və gündəlikdə duran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov qonağı salamlayaraq BMT Baş Assambleyasının prezidentlərinin Azərbaycana səfərlərinin artıq bir ənənəyə çevrildiyini qeyd edib. O, cari səfərin Azərbaycanın BMT-yə üzvlüyünün 30-cu ildönümünə təsadüf etdiyini xüsusilə vurğulayıb. Nazir dünyanın çox mürəkkəb dövrdən keçdiyi bir vaxtda BMT Baş Assambleyasına rəhbərliyi uğurla apardığı üçün Abdulla Şahidi təbrik edib.

BMT Baş Assambleyasının prezidenti Abdulla Şahid Azərbaycanın BMT-nin ən fəal üzv ölkələrindən biri olduğunu qeyd edib və BMT üzvlüyünün 30 illiyi münasibətilə təbriklərini səsləndirib. O, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurla icrasını təqdir edib. Abdulla Şahid çoxtərəflilik üzrə liderliyinə görə Azərbaycan Respublikasının Prezidentinə təşəkkürünü bildirib. O, Azərbaycan Prezidentinin COVID-19 pandemiyasına qarşı irəli sürdüyü qlobal əhəmiyyətli təşəbbüsləri yüksək qiymətləndirdiyini dilə gətirib. Abdulla Şahid Azərbaycanda həmçinin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində milli səviyyədə görülən işləri təqdir edib. Tərəflər Baş Assambleyanın prioritet məsələləri, o cümlədən gənclərlə iş, iqlim dəyişikliyi, gender bərabərliyi və digər mövzular ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Baş Assambleyanın prezidentinə bölgədə mövcud olan cari vəziyyət, o cümlədən işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, minaların təmizlənməsi, habelə Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar barədə məlumat verib. O, bölgədə sülh və sabitliyin təmin edilməsi üçün bütün vacib istiqamətlər üzrə, o cümlədən gələcək sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası, bütün kommunikasiyaların açılması və digər məsələlərdə Azərbaycanın səylərini davam etdirəcəyini söyləyib.

BMT Baş Assambleyasının prezidenti Abdulla Şahid Azərbaycanın bölgədə dayanıqlı sülh quruculuğu səylərinin və quruculuq işlərinin təqdirəlayiq olduğunu diqqətə çatdırıb.

Görüşdə tərəflər həmçinin BMT gündəliyində qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# "SOCAR Türkiyə" ilk onluqda yer alıb

## Türkiyə İxracatçılar Məclisi "2021-ci il ixracat çempionları" siyahısını açıqlayıb





Türkiyə İxracatçılar Məclisi (TİM) "2021-ci il ixracat çempionları" siyahısını açıqlayıb. Türkiyədə ən böyük xarici investor olan "SOCAR Türkiyə" bu siyahıda 8-ci yerə layiq görülüb.

"SOCAR Türkiyə"dən AZƏRTAC-a bildirilib ki, şirkətin törəmə müəssisəsi olan "Petkim" TİM-in "İlk 1000 ixracatçı" siyahısında 22-ci sırada yer alıb.

Haliç Konqres Mərkəzində keçirilən tədbirdə ötən il Türkiyədə ən böyük ixrac dövriyyəsinə malik olmuş 10 şirkətə mükafatlar verilib. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "SOCAR Türkiyə"nin layiq görüldüyü mükafatı Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarova təqdim edib.

SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov qeyd edib ki, Türkiyədə 2021-ci ilin lider ixracatçı müəssisələri arasında yer alan "SOCAR Türkiyə" pandemiyanın mənfi təsirlərinə baxmayaraq, istehsal prosesini fasiləsiz olaraq davam etdirib: "Xüsusilə SOCAR-ın törəmə müəssisələri olan "Petkim" və "Star" Neft Emalı Zavodunun inteqrasiyalı fəaliyyəti sayəsində fasiləsiz istehsalatı yaradılan sinerji, güclü hesabatlılıq və texnoloji transformasiya ilə dəstəkləyərək bu uğura nail olduq. Türkiyənin ilk 10 ixracatçı müəssisəsi arasında yer almaqdan böyük qürur duyuruq. Dost və qardaş Türkiyənin ixracatına verdiyimiz töhfə bizim üçün xüsusilə önəmlidir".

# BMT Baş Assambleyasının prezidenti Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin nümayəndələri ilə görüşüb





İyunun 13-də ADA Universitetində BMT Baş Assambleyasının 76-cı sessiyasının prezidenti Abdulla Şahidin Azərbaycana səfəri çərçivəsində Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin nümayəndələri ilə görüşü keçirilib.



ADA Universiteti və Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin birgə təşkilatçılığı ilə keçirilən görüş COVID-19 pandemiyasından sonrakı dönəmdə dayanıqlı inkişafda gənclərin rolu mövzusuna həsr edilib. Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin digər üzv ölkələrdəki milli bölmələri tədbirə onlayn qoşulub.

AZƏRTAC xəbər verir ki, görüşü giriş sözü ilə açan ADA Universitetinin rektoru Hafiz Paşayev Abdulla Şahidi salamlayaraq onun indiyədək ADA Universitetində çıxış edən BMT Baş Assambleyasının üçüncü prezidenti olmasına diqqət çəkib. Hafiz Paşayev A.Şahidin gənclərlə görüşünün məhsuldar keçəcəyindən əmin olduğunu bildirib.

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov dünyanın hər yerində gənclərin öz ölkələrinin ictimai həyatlarında fəal iştirak etdiklərini diqqətə çatdırıb. Nazir müavini deyib: "Gələcək gənclərindir. Onlar öz bacarıqları və çalışqanlıqları ilə dövlətimizin inkişafına böyük töhfələr verirlər. Azərbaycanda Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi ötən ildən fəaliyyət göstərir və bu qurum vasitəsilə dünyanın hər yerindən gənclərlə ünsiyyət yaradılır. Bu ilin iyulunda ölkəmizdə Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin sammiti keçiriləcək".

Pandemiyanın ağır təsirlərindən danışan nazir müavini bildirib ki, dünyada olduğu kimi, ölkəmizdə də həyat normal axarına düşür. E.Məmmədov vurğulayıb ki, elm, təhsil və başqa sahələrdə gənclərə əlverişli imkanların yaradılması vacib məsələlərdəndir.

BMT Baş Assambleyasının 76-cı sessiyasının prezidenti Abdulla Şahid bundan əvvəl ölkəsinin xarici işlər naziri qismində Azərbaycanda səfərdə olduğunu və növbəti dəfə Bakıya gəlməkdən məmnunluğunu ifadə edib. Gənclərin dayanıqlı inkişafda müstəsna rola malik olduğunu vurğulayan A.Şahid qlobal səviyyədə sülh, təhlükəsizlik, inkişaf və çoxtərəfliliyin qorunub saxlanması üçün atılmalı olan mühüm addımlardan biri kimi gənclərə dəstək məsələsinin önəmini qeyd edib.

Abdulla Şahid vurğulayıb ki, dünyada insan hüquqları, münaqişələr və iqlim dəyişikliyi haqqında ciddi düşünmək lazımdır. Gələcəyin hərəkətverici qüvvəsi kimi gənclərin üzərinə də müəyyən mənada məsuliyyət düşür.

Dünyanın bir çox yerlərində - Əfqanıstanda, Suriyada və Ukraynada münaqişələr baş verdiyini diqqətə çatdıran BMT rəsmisi deyib: "Siz öz münasibətlərinizi bildirməlisiniz, çox fəal olmalısınız. Hər şeyin yaxşı olması üçün səylərinizi ortaya qoymalısınız. Mən gənc diplomatlar üçün xüsusi proqram hazırlamışam. Gənclərin səsi hər yerdə eşidilməlidir".

Abdulla Şahid hər zaman gənclərlə əməkdaşlığa, onların təkliflərini dinləməyə hazır olduqlarını qeyd edib.

BMT-nin Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdıran Abdulla Şahid regionda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində Azərbaycanın təşəbbüsünü yüksək dəyərləndirib.

Tədbirdə həmçinin Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin Azərbaycan bölməsinin rəhbəri Orduxan Məmmədzadə çıxış edərək şəbəkənin təsis edilməsi və beynəlxalq fəaliyyətindən danışıb.

O.Məmmədzadə bu ilin iyulunda keçiriləcək Gənclər Şəbəkəsinin iclasına onlayn qoşulmaq üçün BMT Baş Assambleyasının 76-cı sessiyasının prezidenti Abdulla Şahidə dəvət məktubu təqdim edib.

Tədbir müzakirələrlə davam edib.

# Azərbaycanın xarici işlər naziri Paraqvay parlamentinin nümayəndə heyəti ilə görüşüb

İyunun 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Paraqvay Respublikasının parlamentinin nümayəndə heyəti - Deputatlar Palatasının Xarici Əlaqələr Komissiyasının sədri, eyni zamanda Paraqvay-Azərbaycan dostluq qrupunun rəhbəri Valter Enrike Harms Sespedes və Senatdakı Paraqvay-Azərbaycan dostluq qrupunun sədri Lukas Orlando Akino Xara ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud olan əlaqələrin məmnunluq doğurduğunu və Azərbaycanın Paraqvayla əlaqələrin inkişafına önəm verdiyini qeyd edib. Nazir Ceyhun Bayramov 2019-cu ildə Azərbaycan Respublikasının xarici işlər nazirinin, habelə 2022-ci ildə Azərbaycan Respublikasının xarici işlər nazirinin müavinin Paraqvaya səfərlərinin, bu xüsusda keçirilən görüşlərin ikitərəfli əlaqələrə töhfə verdiyini bildirib.

Nazir iki ölkə arasında münasibətlərin inkişafında parlamentlərarası dostluq qruplarının, o cümlədən parlament diplomatiyasının önəmli yer tutduğunu ifadə edib. Paraqvay-Azərbaycan dostluq qrupunun üzvlərinin Azərbaycanla bağlı məsələlərdə böyük fəallıq göstərdiyi, habelə Xocalı ilə bağlı Paraqvay parlamenti tərəfindən qətnamənin qəbul edilməsi minnətdarlıqla qeyd olunub. Nazir Ceyhun Bayramov həmçinin Paraqvay parlamentinin nümayəndələrinə keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin ağır nəticələri, 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni reallıqlar, habelə bölgədə aparılan bərpa-quruculuq işləri, sülh quruculuğu istiqamətində atılan addımlar barədə məlumat verib. Hazırda Paraqvay Respublikasının Xarici İşlər Nazirliyinin iki gənc diplomatının ölkəmizdə təlim proqramında iştirak etdiyini qeyd edən nazir Ceyhun Bayramov bu kimi mübadilələrin ikitərəfli əlaqələrin inkişafında müsbət rol oynadığını bildirib.

Paraqvay Respublikasının parlamentinin nümayəndə heyətinin üzvləri, öz növbələrində Azərbaycana səfəri və bu xüsusda keçirilmiş görüşləri, habelə işğaldan azad edilmiş ərazilərə edilən səfəri yüksək qiymətləndirərək bu səfərin ölkədəki vəziyyətlə yerindəcə tanış olmaq baxımından əhəmiyyət kəsb etdiyini bildiriblər. Paraqvayın hər zaman beynəlxalq hüququn norma və prinsiplərinə hörmət etdiyini, həmçinin Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyi vurğulanıb. Qarşı tərəf Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduqlarını və səfərin potensial əməkdaşlıq sahələrinin müəyyən olunması baxımından əhəmiyyətini qeyd ediblər.

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# DSX-nin Xüsusi Məktəbində məzunların buraxılışına həsr edilmiş təntənəli tədbir keçirilib

Dövlət Sərhəd Xidmətinin (DSX) Xüsusi Məktəbində 2021-2022-ci tədris ilinin başa çatması ilə əlaqədar məzunların buraxılışına həsr edilmiş təntənəli tədbir keçirilib.



DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan Vətən müharibəsində canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlanan tədbirdə çıxış edənlər məktəbin müəllim və kursant kollektivini, onların valideynlərini təbrik edərək Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərindən, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılmasını qeyd ediblər.

DSX-nin Xüsusi Məktəbinin yaradılmasında, formalaşdırılmasında və onun zəruri tədris bazası ilə təchiz olunmasında Birinci vitse-prezident Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun xidmətləri xüsusi olaraq vurğulanıb.

Fəaliyyət göstərdiyi qısa müddətdə DSX-nin Xüsusi Məktəbi ölkəmizdə çox böyük nüfuz qazanıb. Məktəbdə təhsil almaq arzusunda olanların sayının qəbul planından dəfələrlə çox olmasını, məktəbə olan xüsusi marağı nəzərə alaraq Heydər Əliyev Fondunun dəstəyi ilə məktəbin yeni inşa edilmiş və ən yüksək standartlara cavab verən tədris korpusunun 2018-ci il martın 5-də Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilməsi kursantların sayının üç dəfəyədək artırılması imkanını yaradıb.

Məktəbdə yüksəkixtisaslı pedaqoji kollektivin yaradıldığı, təlim və tədrisin müasir tələblər səviyyəsində qurulması üçün qabaqcıl metodların bacarıqla tətbiq edildiyi, hər il məktəbi bitirən kursantların əksəriyyətinin uğurla imtahan verərək DSX-nin Akademiyasına qəbul olunduğu məmnunluq hissi ilə qeyd olunub. Mərasimdə 2022-ci ildə DSX-nin Xüsusi Məktəbini bitirən kursantlara döş nişanları təqdim olunduqdan sonra məzunların xatirəsini əks etdirən adlı siyahı Xüsusi Məktəbinin "məzun simvolu" olan rəmzi nar ağacına sancılıb.

Sonda DSX-nin Nümunəvi Hərbi Orkestri maraqlı konsert proqramı ilə çıxış edib.

# MİLLİ QURTULUŞ

## SÜRƏTLİ İNKİŞAF, DÜŞÜNÜLMÜŞ SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2022



# Azərbaycan Ulu Öndər Heydər Əliyev ideyalarının işığında böyük inkişaf yolu keçib

**İyunun 13-də Ağcabədi şəhərində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluşdan Zəfərə" adlı regional konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Milli Məclisin bir qrup deputatının, Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının məsul əməkdaşlarının, partiyanın Qarabağ və Şərqi Zəngəzur zonalarını əhatə edən Ağdam, Bərdə, Tərtər, Füzuli, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayon təşkilatlarının sədr və fəallarının, eləcə də Ağcabədi rayon ictimaiyyətinin nümayəndələrinin, şəhid ailələrinin, qazilərin iştirak etdiyi tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzi meydanındakı abidəsi ziyarət edilib, önünə gül dəstəsi qoyulub.

Ağcabədi rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədovun moderatorluğu ilə keçən tədbirdə Milli Məclisin deputatı Tahir Rzayev "Aqrar sahənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir" mövzusunda çıxış edib. Bildirib ki, ölkə iqtisadiyyatına əsaslı töhfələr verən kənd təsərrüfatının inkişafı, bu sahədə uğurlu nəticələrin əldə edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər 1969-cu ildə Azərbaycana rəhbər təyin edildiyi ilk gündən kənd təsərrüfatının inkişaf etdirilməsini birinci dərəcəli vəzifə kimi qarşıya qoymuşdu. Ulu Öndər Heydər Əliyevin siyasi xətti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün siyasi, iqtisadi, sosial, mədəni sahələri əhatə edən dövlət proqramları, layihələr, imzalanan qərar və sərəncamlar bilavasitə ölkəmizin qüdrətlənməsinə, iqtisadi inkişafın sürətlənməsinə, əhalinin rifah halının yaxşılaşdırılmasına, dövlətimizin beynəlxalq nüfuzunun yüksəldilməsinə hesablanıb. Bu proqram və layihələr aqrar sektoru da əhatə edir.

Konfransda Milli Məclisin deputatı Fatma Yıldırımın "İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işlərində ekoloji amillər" mövzusunda çıxışı dinlənilib. Bildirilib ki, Ermənistanın Azərbaycana qarşı uzun müddət davam edən təcavüzkar siyasəti nəticəsində təbii sərvətlərimiz də istismar və talan edilib, minlərlə hektar meşə sahəsi məhv olub. Aparılan monitorinqlər əsasında Qubadlı, Füzuli və Cəbrayıl rayonlarının ərazisində yaşı 1600, 900 və 500 il olan Şərq çinarlarının məhv edildiyi müəyyənləşib. Keçmiş SSRİ dövründən xüsusi qorunma statusu olan unikal təbiət abidələri siyahısına daxil edilmiş minillik qədim ağacların qəsdən kəsilməsi açıq-aşkar ekoloji cinayətdir. 30 ilə yaxın davam edən işğal müddətində Azərbaycan ərazilərində su ehtiyatlarının çirkləndirilməsi, radioaktiv tullantıların sulara axıdılması da erməni barbarlığının nümunəsi - ekoloji terror siyasətinin göstəricisidir.

Diqqətə çatdırılıb ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işlərinin aparılması, Böyük Qayıdışın - dayanıqlı və layiqli məskunlaşmanın təmin olunması mühüm strateji prioritetlərdən biridir. Görülən işlər genişmiqyaslı olmaqla yanaşı, həm də çoxşaxəlidir. Yeni infrastrukturun yaradılması ilə yanaşı, ekoloji tarazlığın təmin olunması ilə əlaqədar bərpa işlərinin görülməsi də əsas vəzifələrdən biri kimi müəyyən edilib. Bioloji müxtəlifliyin qorunması, zəngin su ehtiyatlarından istifadə, məqsədli şəkildə məhv edilmiş meşə ehtiyatlarının bərpası xüsusi olaraq diqqət mərkəzində saxlanılır. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi ilə əlaqədar məqsədyönlü tədbirlərin həyata keçirilməsi də diqqət mərkəzində olan mühüm məsələlərdəndir. Azərbaycan dövlətinin ekoloji siyasəti, o cümlədən quruculuq tədbirləri Qarabağın yenidən qurulmasına, dirçəlməsinə, cənnət-məkana, dünyanın ən gözəl guşələrindən birinə çevrilməsinə, eləcə də ekoloji tarazlığın qorunmasına müstəsna töhfə verəcək.

YAP Mərkəzi Aparatının baş məsləhətçisi Elmar Məmmədov "Qurtuluşdan başlayan davamlı inkişaf yolu" mövzusunda çıxışında 1990-cı illərin əvvəllərində respublikamızda baş verən ictimai-siyasi proseslərdən, görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışının tarixi əhəmiyyətindən danışıb. Bildirib ki, 1993-cü ilin əvvəllərində hərbi məğlubiyyət, daxili böhran, ölkə daxilində gedən xoşagəlməz proseslər, siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə ölkəmizin müstəqilliyini sual altına qoymuşdu. Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında Bakıya gəldi və iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Dahi lider böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü, xalq da Heydər Əliyevi öz milli xilaskarı və öndəri seçdi. Azərbaycanda davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin inkişaf strategiyasını elan edərək milli dövlətçiliyimizin konsepsiyasını yaratdı və Azərbaycan inkişaf yoluna qədəm qoydu.

Konfransda YAP Füzuli rayon təşkilatının sədri Almaz Həşimova "Milli elm və təhsilin inkişafı Heydər Əliyev siyasi kursunun uğurudur" mövzusunda çıxışında bildirib ki, təhsilin cəmiyyətin inkişafında rolunu yüksək qiymətləndirən Ulu Öndərin qəbul etdiyi qərarlar, uzaqgörənliklə irəli sürdüyü konseptual fikirlər və ideyalar, tarixi tövsiyələr bu gün də ölkəmizdə təhsil islahatının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə öz töhfəsini verməkdədir. Azərbaycan təhsilinin inkişafı naminə böyük işlər görən müdrik rəhbər təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmayıb, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin mühüm rola malik olduğunu daim önə çəkib. Cəmiyyəti bütün istiqamətlərdə yüksəlişə aparan dahi şəxsiyyət milli məfkurənin güclənməsi, dövlətçilik şüurunun formalaşması üçün hər bir azərbaycanlının yüksək təhsil almasını, elmi yenilikləri mənimsəməsini vacib amil hesab edirdi. Bütün varlığı ilə Vətənə bağlı olan Ulu Öndərin rəhbərliyi ilə elm və təhsil sahəsində aparılan köklü dəyişikliklər, qəbul edilmiş qərar, fərman və sərəncamlar, onların həyata keçirilməsi Azərbaycanda təhsil sektorunun hərtərəfli yüksəlişini, məzmunca yenilənməsini, maddi-texniki cəhətdən möhkəmlənməsini şərtləndirdi. Ümummilli Liderin təməlini qoyduğu təhsil siyasəti bu gün uğurla davam və inkişaf etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin səyləri sayəsində elm və təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilib. Əsası Heydər Əliyev tərəfindən qoyulan milli təhsil strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə icra edilən dövlət proqramları təhsilin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasına və yüksək nəticələrin əldə olunmasına xidmət edir.

YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev "Ölkənin siyasi sistemində Yeni Azərbaycan Partiyasının rolu" mövzusunda çıxış edib. Azərbaycan dövlətçiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olmasında, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında YAP-ın mühüm rolu və xidmətlərindən danışıb, ötən dövrdə respublikamızda əldə olunan uğurları diqqətə çatdırıb.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov "Qurtuluş Böyük Qələbəyə aparan yolun başlanğıcı idi" mövzusundakı çıxışında 1993-cü ilin iyun hadisələri ərəfəsində respublikamızda yaranmış ağır vəziyyətdən, hökm sürən hərc-mərclikdən, Ulu Öndərin xilaskarlıq missiyasından danışıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycan tarixinin, bərpa edilmiş müstəqilliyimizin yeni bir dövrünün əsasını qoydu, Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi, müstəqilliyimiz xilas edildi. Azərbaycan tarixinin 1993-cü ilin iyununda başlanmış və hazırda davam etməkdə olan dövrü - mahiyyətcə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi uğrunda mübarizə və yeni, müasir müstəqil Azərbaycanın qurulması dövrüdür. 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Xarici düşmənlərin və onların daxildəki əlaltılarının Azərbaycanı parçalayıb yox etmək planı puça çıxdı. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Ulu Öndər Heydər Əliyev ideyalarının işığında böyük inkişaf yolu keçib, ölkəmizin ərazi bütövlüyü bərpa edilib. Bütün bunlar əyani şəkildə göstərir ki, Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Respublikası Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, demokratik və ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır.

Tədbir bədii hissə ilə davam edib.

# Azərbaycan Ağsaqqallar Şurasında Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib



**Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Bu tarix xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Ulu Öndər Heydər Əliyevdir.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Ağsaqqallar Şurasında 15 İyun - Milli Qurtuluş Gününə həsr edilmiş tədbirdə Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, professor Eldar Quliyev söyləyib.

Milli Qurtuluş Gününün tarixi əhəmiyyəti haqqında danışan Eldar Quliyev qeyd edib ki, milli qurtuluş ideologiyasının təntənəsi hər zaman müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verib, dünyada Azərbaycanın nüfuzunun daha da artırılmasında əsas faktora çevrilib: "Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilməyə başladı. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi. Bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı".

Eldar Quliyev əlavə edib ki, ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi Azərbaycandır. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır.

Azərbaycan Ağsaqqallar Şurasının sədrinin müavini, Milli Məclisin deputatı Eldar İbrahimov çıxış edərək Milli Qurtuluş Gününün tarixi və ölkəmizin inkişafındakı əhəmiyyəti barədə danışıb. Natiq qurtuluşa gedən yolun çox çətin olduğunu qeyd edərək deyib ki, o dövrdə Azərbaycanda yarıtmaz, ancaq öz mənfəətini düşünən insanlar hakimiyyətdə idilər. Belə bir dövrdə Ulu Öndər Heydər Əliyevin ətrafında toplaşan, öz xalqının mənafeyini hər şeydən üstün tutan insanlar bilirdilər ki, yeni bir siyasi partiyanın yaradılmasına ehtiyac var. Bu partiya Yeni Azərbaycan Partiyası oldu. Xilaskarlıq missiyasını öz üzərinə götürərək hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanı dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Ölkədə siyasi sabitlik yaratdı. Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanın geosiyasi imkanlarından istifadə edərək müstəqilliyini qoruyub saxlamağa, ölkəmizi sürətli inkişaf yoluna çıxarmağa, xalqımızın milli mənəvi sərvətlərinə sahib çıxmasına, dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının vahid məfkurə ətrafında birləşdirilməsinə nail oldu. Məhz Ulu Öndərin səyləri nəticəsində "Əsrin müqaviləsi"nin imzalandığını bildirən Eldar İbrahimov deyib ki, bu gün Prezident İlham Əliyev Ulu Öndərin başladığı enerji, nəqliyyat layihələrini uğurla davam və inkişaf etdirir. Bu gün aparılan düzgün iqtisadi siyasət nəticəsində həm vətəndaşlarımız firavan həyat sürür, həm də Azərbaycan Avropanın enerji təhlükəsizliyində önəmli rol oynayır.

Ümummilli Liderin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışının dövlətçilik tariximizin şanlı səhifəsini təşkil etdiyini deyən E.İbrahimov söyləyib ki, qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhvali-ruhiyyə ilə qeyd edir. Deputat diqqətə çatdırıb ki, ötən illərdə Ümummilli Liderin həyata keçirdiyi xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan edib, Azərbaycan məhv olmaq təhlükəsindən qurtularaq gələcəyə inamla baxan güclü dövlətə çevrilib. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm və siyasi iradə sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir. Onun rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf edib. E.İbrahimov qeyd edib ki, gənclərimiz Milli Qurtuluş Gününün əhəmiyyətini, Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərini dərindən öyrənməli, Prezident İlham Əliyevin həyata keçirdiyi və ölkəmizin sürətli inkişafını təmin edən dövlət siyasətinə sadiq qalaraq Azərbaycanın tərəqqisinə mühüm töhfə verməlidirlər.

Azərbaycan Ağsaqqallar Şurasının sədrinin birinci müavini, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov vurğulayıb ki, XX əsrin sonlarında, xüsusilə SSRİ-nin dağılması ərəfəsində və müstəqilliyimizin ilk illərində xalqımızın başına açılan müsibətlərin səbəbi məhz milli rəhbərin olmaması idi. Hakimiyyətə qayıtdıqdan sonra həyata keçirdiyi islahatlar, yeritdiyi siyasət nəticəsində Azərbaycanı bütün dünyaya tanıdan Ümummilli Lider xalqımızın öz seçimində yanılmadığını sübut etdi. Sevindirici haldır ki, Ulu Öndərin əsasını qoyduğu ideyalar bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir, Azərbaycan xalqı onun rəhbərliyi ilə xoşbəxt gələcəyə doğru qətiyyətlə addımlayır.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü Kamran İmanov, Azərbaycan Ağsaqqallar Şurasının sədrinin müavini, professor Elmira Süleymanova, Ağsaqqallar Şurasının qurumun İdarə Heyətinin üzvü, professor Misir Mərdanov, habelə Suraxanı Rayon Ağsaqqallar Şurasının sədri Arif Babayev Milli Qurtuluş Gününün müstəqilliyimizin tarixinə şanlı səhifə kimi yazıldığını vurğulayıb, bu günün Azərbaycanın tarixində yeni mərhələnin başlanğıcı olduğunu diqqətə çatdırıblar.

Tədbirdə akademik Arif Həşimov, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavinləri - professor Vahid Novruzov, Bayram Yusifov, Tahir Süleymanov, təşkilatın aparat rəhbəri Ramin Həsənli, böyük məsləhətçi - hüquqşünası Kamal Əliyev, məsləhətçisi Zahid Abbasov və Şuranın rayon təşkilatlarının sədrləri iştirak ediblər.






# "Formula-1" Azərbaycan Qran-prisi başa çatdı







**İyunun 12-də Bakı Şəhər Halqasında "Formula-1" üzrə dünya çempionatının səkkizinci - Azərbaycan Qran-prisinin əsas yarışına start verilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Qran-prinin açılış mərasimi keçirilib.

Açılış mərasimində "Lumineux" vokal xor ansamblı Azərbaycan Respublikasının Dövlət Himnini ifa edib.

Himnin ifası zamanı "SOS Uşaq Kəndləri Azərbaycan" təşkilatı tərəfindən qayğı göstərilən, valideyn himayəsindən məhrum uşaqlar əllərində pilotların fotoşəkilləri olan lövhələr tutublar. Uşaqların Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin növbəti sosial məsuliyyət yönümlü fəaliyyətində iştirakı böyük maraqla qarşılanıb. 1999-cu ildə yaradılmış "SOS Uşaq Kəndləri Azərbaycan" təşkilatı valideyn himayəsindən məhrum uşaqlar üçün ailələr yaratmaqla onlara öz gələcəklərini qurmaqda kömək edir.

Açılış mərasimindən sonra "Formula-1" Azərbaycan Qran-prisinin əsas yarışı başlayıb.

İki saata yaxın davam edən yürüşdə bütün rəqiblərini geridə qoyan "Red Bull Racing" komandasının niderlandlı pilotu Maks Ferstappen (1:34:05.941) "Formula-1" Azərbaycan Qran-prisinin qalibi olub. Onun komanda yoldaşı meksikalı Serxio Peres yarışı (+20.823s) ikinci sırada başa vurub. "Mersedes" komandasının britaniyalı pilotları Corc Rassel (+45.995s) üçüncü, Luis Hamilton (+71.679s) dördüncü olublar. İlk beşliyi "Alphatauri" komandasının fransalı sürücüsü Pyer Qasli (+77.299s) tamamlayıb. İlk beşlikdə qərarlaşan pilotlar aktivlərinə müvafiq olaraq, 25, 19, 15, 12 və 10 xal yazdırıblar.

"Formula-1" Azərbaycan Qran-prisi başa çatdıqdan sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

Qran-prinin qalibi "Red Bull Racing" komandasının və niderlandlı pilot Maks Ferstappenin şərəfinə Niderlandın və Avstriyanın Dövlət himnləri səsləndirilib.

Sonra qaliblərə kuboklar təqdim olunub.

Qran-prinin qalibi Maks Ferstappenə kuboku Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov təqdim edib.

"Red Bull Racing" komandasının nümayəndəsinə kubok Beynəlxalq Avtomobil Federasiyasının (FIA) prezidenti, ralli üzrə keçmiş pilot Mohammad ben Sulayem tərəfindən təqdim olunub.

Qran-pridə ikinci yeri tutan Serxio Peresə ("Red Bull Racing) kuboku gənclər və idman naziri Fərid Qayıbov, üçüncü pillədə qərarlaşan britaniyalı Corc Rasselə ("Mersedes") isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim ediblər.

"Formula-1" Azərbaycan Qran-prisinin kubokları Şuşanın 270-ci ildönümünə həsr olunub.



# Şuşalı Qran-pri




## "Formula-1" Azərbaycan kuboku da mədəniyyət paytaxtımızın 270-ci ildönümünə həsr olundu

**Keçilməz sıldırımlar qoynunda bina olmuş qartal əzəmətli bir qala var…**
**O qalada qürurla dalğalanan üçrəngli, ay-ulduzlu müqəddəs bayraq bütün Qarabağa, Azərbaycana, dünyaya azadlıq sədası yayır, qurtuluş sorağı bəxş edir…**
**Azərbaycan xalqının qəhrəmanlıq, qürur zirvəsi kimi şah ucalıqda dayanan bu ulu yurd Yer üzünün hər yanından görünən şanlı qələbə ünvanıdır…**
**Zəfərin, mədəniyyətin, sülhün, barışığın əbədi bərqərar olduğu cənnətməkandır…**
**Bura Vətəndir…**
**Bura Şuşadır…**

### "Qarabağ Azərbaycandır!" həqiqətinin möhür ünvanı

Ruhumuzun dirçəliş ünvanı olan bu əfsanəvi Azərbaycan şəhəri 8 noyabr 2020-ci ildə şücaətlə azadlığına qovuşdurulandan sonra tarixi şan-şöhrətini bərpa etməyə başlayıb. Zəfərdən qısa zaman sonra işğaldan azad edilən bütün torpaqlarımızda olduğu kimi, Qarabağın ürəyi Şuşada da genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. Şuşanın tarixi əzəmətinin, mədəni ruhunun özünə qaytarılması istiqamətində nəhəng layihələrin icrasına başlanılıb.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada illərdən sonra "Xarıbülbül" Musiqi Festivalı baş tutub, Vaqifin bərpa olunan əzəmətli mavzoleyinin qarşısında "Vaqif Poeziya Günləri" keçirilib. Şuşada gerçəkləşən daha bir əlamətdar hadisə, ötən il, müstəqil Azərbaycan dövlətinin 15 İyun - Qurtuluş Günündə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması və bununla da Azərbaycan - Türkiyə əlaqələrinin ən yüksək zirvəyə çatdırılması olub. Bu ili isə başdan-başa "Şuşa ili", Zəfər qalamızın şanlı tarixinin bayramı kimi qeyd edirik.

İndi mədəniyyət paytaxtımız hər kəs tərəfindən musiqi festivallarının, şeir bayramlarının keçirildiyi, əlamətdar beynəlxalq tədbirlərin baş tutduğu, tarixi bəyannamələrin imzalandığı mühüm şəhər kimi anılır.

Ən əsası, bütün dünya Şuşanı Azərbaycanın qələbə rəmzi sayır, "Qarabağ Azərbaycandır!" həqiqətinin möhür ünvanı kimi tanıyır.

### Rəsmi mükafat Yuxarı Gövhər ağa məscidinin minarələrinin elementlərini əks etdirir

Elə bu il Bakıda keçirilən növbəti "Formula-1" Azərbaycan Qran-prisi kubokunun qədim şəhərimiz Şuşanın 270-ci ildönümünə həsr olunması da buna daha bir möhtəşəm nümunə oldu. Zəngin irsimizin elementlərini özündə birləşdirən yarışın rəsmi mükafatı Azərbaycanın əzəli torpaqlarına - Şuşaya qovuşması və "Şuşa ili" münasibətilə şəhərin ən qədim abidələrindən sayılan Yuxarı Gövhər ağa məscidinin minarələrinin elementlərini əks etdirir. Kubok üzərindəki naxışlar qabarıq lentlərlə üç hissəyə bölünmüş və rəngli daşlarla bəzədilmiş minarələrin kərpiclə hörülmüş səthini xatırladır. Milli naxış və elementlər yarışın saf gümüşdən hazırlanmış dörd kubokunun (pilotlar üçün 1, 2 və 3-cü yer kuboku və Konstruktorlar Kuboku) üzərində mövcuddur.

### Bunun böyük rəmzi mənası var

1752-ci ildə Pənahəli xan tərəfindən təməli qoyulan qədim şəhərimizin 270 illik yubileyini coşqu ilə qeyd etdiyimiz bu ərəfədə dünyaca məşhur bir yarışın - "Formula-1" Azərbaycan Qran-prisinin rəsmi mükafatının da məhz Şuşaya həsr edilməsinin böyük rəmzi mənası var.

"Şuşa ili"nə əlamətdar töhfə olan bu addım həm də bir daha onu sübut edir ki, artıq beynəlxalq aləm də "Qarabağ Azərbaycandır!", "Şuşa Azərbaycanın qədim şəhəridir" reallığını qəbul edir. Bu tarixi həqiqəti bütün platformalarda istər siyasi, mədəni, istərsə də idman və digər sferalarda bariz şəkildə etiraf edir.

Bu baxımdan Bakıda baş tutan möhtəşəm "Formula-1" Azərbaycan Qran-prisi də 44 günlük şanlı Vətən müharibəsində qazandığımız parlaq Zəfərin dünyada tərənnüm və təbliğ olunduğu daha bir beynəlxalq kürsü oldu. Beynəlxalq yarışın rəsmi mükafatının Yuxarı Gövhər ağa məscidinin timsalında mədəniyyət paytaxtımız Şuşanı simvolizə etməsi də bir daha onu göstərdi ki, bu qəhrəman şəhər həm də Azərbaycanın Zəfər rəmzidir və qaliblərə də məhz bu cür qələbə ərməğanı yaraşır.

Bir sözlə, Azərbaycan Qran-prisinin qalibinin qazandığı kubokla yaxından tanış olan hər kəs eyni zamanda Vətən müharibəmizin qürurlu Şuşa zəfəri haqqında da məlumat almaq imkanı qazanır. "Qarabağ Azərbaycandır!" reallığı ilə bir daha əyani tanış olur...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***








# Bakıya maraqla gəldik, sevgi ilə ayrılırıq



## Turistlər "Formula-1"in həyəcanını yaşamaqla yanaşı, paytaxtımızın füsunkarlığına da heyran qalıblar



**Ötən həftə Bakı "Formula-1" Azərbaycan Qran-prisinə evsahibliyini uğurla başa vurdu. Həftəsonu şəhər sürətlə şütüyən yarış avtomobillərinin səsinə bürünmüşdü. Tədbirin təşkili ilə pandemiyadan sonra paytaxtda ilk dəfə belə rəngarənglik hiss edilirdi.**

Mərkəzi küçələrdə gəzərkən hər 5 nəfərdən 3-nün fərqli millətdən olduğuna şahidlik etmək mümkün idi. Hətta yarışın keçirildiyi vaxtda onların bir çoxu ilə digər tarixi və görməli yerlərdə də rastlaşdıq. Bu isə onu sübut edirdi ki, yarış əsas gəliş səbəbi olsa da, şəhərə duyulan sevgi onları daha yaxından tanışlığa sövq edib.

Ümumiyyətlə, beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi inkişaf cığırına öz toxumlarını səpir. Gələn turistlər ölkə haqqında müfəssəl məlumatlarla geri dönür, xoş ovqatla keçirdikləri günlərdən bəhs edirlər. Bu xoş təəssüratları isə biz növbəti şəhər sorğumuzda onların dilindən daha ətraflı öyrəndik.








### "Final gününü unutmayacağıq"

***Vlad və Robert Lisov, Rusiya:***

- "Formula-1"ə atamla iki gün üçün bilet almışıq. Ən həyəcanlı anları isə düşünürəm ki, final günündə yaşadıq, bu günü heç zaman unutmayacağıq. Atamı yarışa gəlmək üçün məcbur etsəm də, artıq dünəndən gəldiyi üçün çox məmnundur. Yarışa məndən daha yüksək coşqu ilə azarkeşlik edirdi. Mənim tutduğum komandaya dəstək olmalı olduğunu desəm də, o, özünə bu yarışda başqa komandadan olan sürücünü seçmişdi. Hətta mənimlə mərcə də girmişdi. Şəhər isə tək sözlə mükəmməldir. Bakı mənim sevimli şəhərlərim sırasında yer aldı.

### "Məşhur pilotları gördüyüm üçün çox şanslıyam"

***Saşa Sova, Kipr:***

- Yarışa baxmaq ayrı zövqdür, qarajları gəzmək isə başqa bir təəssürat bağışlayır. Pit zolağında gəzinti zamanı məşhur pilotların avtomobilləri ilə tanış olduq. Burada olarkən özümü çox şanslı hiss edirdim. Çünki Çarls Lekrek, Daniel Riçardo və s. kimi "Formula-1"in məşhur simaları ilə ilk dəfə idi ki, üz-üzə gəlirdim. Onlarla xatirə şəklimin olacağı isə buraya gəlməzdən əvvəl heç ağlımın ucundan belə keçməmişdi. Bundan əlavə, bu gəzintidə qarajdakı əfsanəvi maşınları dünya seyr etməzdən əvvəl ilk biz görmüş olduq.

Bir sözlə, "Formula-1"in 3 günündə də burada oldum. Deyərdim ki, heç bir gün digərinə bənzəmirdi. Şəhər öz işığını da yarışa yansıtmışdı.

### "Bakıya səfərim ikiqat sürprizli oldu"

***Kristina Klinepeter, ABŞ:***

- Uzun müddətdir ki, professional karate ilə məşğul oluram. Bakıya səfərim də elə bu səbəbdən idi. Məşqçim məni keçirilən məşq və yarışlarda iştirak etmək üçün Bakıya dəvət etmişdi. Mən də həyat yoldaşımla birlikdə gəldim. Burada olduğumuz vaxtda yoldaşım Con "Formula-1"ə bir gün öncədən bilet alaraq yarışa gedəcəyimizi dedi. Mən çox təəccübləndim. Çünki adətən yarışları TV-dən izləyirdim və Con "Formula"ya olan sevgimi bilirdi.

Səfərim ikiqat sürprizli oldu. Final gününün əsl adrenalin və həyəcanını yerində, səsdən titrəyən tribunalarda yaşadım. Çox sevincliyəm ki, doğru qərarı verərək buraya gəlmişəm və çoxdandır ki, arzusunda olduğum yarışı və pilotları canlı görə bildim.

### "Dəstəklədiyim komanda qalib gəldi"

***Martin Villems, Belçika:***

- Bakıya ikinci gəlişimdir. İlk dəfə 7 il öncə işimlə əlaqədar gəlmişdim. Bu illər ərzində şəhəriniz çox dəyişilib. Ətrafda hər şey dəyişilsə də, insanlar elə eyni qalıb. Eyni səmimiyyət, eyni qonaqpərvərliklə qarşılaşdım. Burada olmaqdan çox xoşbəxtəm. Məni xoşbəxt edən əsas nüans isə "Formula-1"in mənimçün uğurlu keçməsidir. Dəstəklədiyim komanda da qalib oldu.

### "Hər dəfə gələndə yeniliklər kəşf edirəm"

***Dmitri Vlahos, Yunanıstan:***

- "Formula-1"in sadiq azarkeşlərindənəm. Demək olar ki, getmədiyim yarış yoxdur. Bakını çox sevirəm və bəyənirəm. Şərq və Qərb mədəniyyətini özündə birləşdirməklə insanı valeh edir. Hər dəfə gələndə özüm üçün yeni yerlər və dadlar kəşf edirəm. Azərbaycan qədim tarixə malik olduğu üçün hələ çox tarixi məkanlar görüb, müxtəlif yeməklər dadacağam. Yarışın hər üç gününə bilet almışdım. Bəyəndiyim komanda məğlub olsa da, əsla əhvalımı pozmuram, onların gələn il qalib gələcəyinə ümid edirəm.

### "Sanki şəhərdən şəhərə səyahət etmişik"

***Demir Cantaş, Türkiyə:***

- Azərbaycana dostlarımla gəlmişəm. Yarış və onunla bağlı bütün tədbirlər yüksək səviyyədə təşkil olunub. Bu, hər addımda, hər baxışda hiss edilir. Burada özümüzü qətiyyən yad hiss etmirik. Sanki ölkədən ölkəyə deyil, şəhərdən şəhərə səyahət etmişik. Doğma, qardaş olduğumuzu hər addımımızda bizə hiss etdirirlər.

Başıma maraqlı bir hadisə də gəldi. Gəldiyim ilk gün fotoaparatımı Türkiyədə unutduğumu gördüm, çox heyfsiləndim. Bunu eşidən qaldığımız hotelin administratoru dərhal öz fotoaparatını gətirdi. Keçirdiyim hissləri sizə izah edə bilmərəm. Göstərilən bu diqqət məni çox duyğulandırdı. Yaxşı ki, varsınız.

### "Səfərdən çox razı qaldıq"

***Dina Haugen, Norveç:***

- "Formula-1" yarışını izləməyə valideynlərimlə gəlmişəm. Yarışın final günü gəldiyimiz üçün çox yeri görə bilməmişəm. Hələ üç gün buradayıq. Uzun bir siyahı hazırlamışam. Yarış artıq bitdiyi üçün gəzməyə vaxt ayıra bilərik. Sabah səhər ilk olaraq Qız qalasına və onun yaxınlığındakı muzeylərə getməyi planlaşdırırıq. Səfərimizdən çox razı qaldıq, buradan xoş təəssüratlarla ayrılacağıq. Hər şey yüksək səviyyədə təşkil edilmişdi.

Diqqət etdiyim və çox önəm verdiyim digər bir məqam isə təhlükəsizlik tədbirlərinə xüsusi nəzarət yetirilməsi idi. Elə bu baxımdan da özümü çox rahat hiss etdim.

### "Bakıya səfərim ilk olsa da, sonuncu olmayacaq"

***Oleq Zubçov, Rusiya:***

- Biz beş dost Bakıya gəlmişik. Uzun illər bundan öncə elə "Formula-1"də tanış olmuşuq. O gün bu gündür hər il "F-1" çərçivəsində ən azı üç ölkəyə getməyə çalışırıq. Builki yarışları Monako və Azərbaycanda seyr etdik. Hər iki ölkədən məmnun qalsaq da, Azərbaycan gözəlliyi və ecazkarlığı ilə bizi bir başqa heyran etdi.

Mən "Red Bull" komandasının pilotu Serxio Peresə azarkeşlik edirəm. Onun bu gün qaliblər arasında olması məni çox sevindirdi. Bakıya ilk dəfədir gəlirəm, əminliklə deyə bilərəm ki, sonuncu olmayacaq. Yeməklərinizi xüsusilə bəyəndim. Plov favoritimdir.

### "Növbəti illərdə qadınların da yarışda iştirakına ümid edirəm"

***Molina Alonso, İspaniya:***

- "Formula-1"in sadiq azarkeşlərindənəm. Çoxları bunu eşidəndə təəccüblənir. Nəyə görəsə qadının yarış maşınlarına marağı, sürət və adrenalin sevgisi insanlara qəribə gəlir. Mənə isə "F-1"də nə üçün hələ də qadın sürücülərin olmaması maraqlıdır. Ümid edirəm ki, qarşıdakı illərdə trekdə həmcinslərimin performasına tamaşa edəcəyik.

Bakıya ilk dəfə gəlsəm də, çox bəyəndim. Hətta dünən vaxt tapıb rəfiqələrimlə Bilgəh çimərliyinə də getdim. Günəş, qum, dəniz bizi məftun etdi. Şirniyyatlarınızı çox sevdim. İspaniyaya qayıdarkən mütləq valideynlərim üçün onlardan da pay aparacam.

### "Diqqətimi ilk dəfə şəhərin milli memarlıq üslubu cəlb etdi"

***Robert James, İngiltərə:***

- Adətən, səyahətləri atamla birlikdə edirik. Budəfəki səfərimizi Azərbaycana etdik. Hər ikimiz ilk dəfədir ölkənizə gəlirik. Təyyarədən endiyim andan Bakıya valeh oldum. İxtisasca memar olduğum üçün diqqətimi ilk dəfə şəhərin milli memarlıq üslubu cəlb etdi. "Formula-1" yarışlarından iki gün əvvəl gəldiyimiz üçün gəzməyə, muzeylərlə, qədim və yeni tikililərlə tanış olmağa yetərincə vaxtımız vardı. Ən bəyəndiyim isə Alov qüllələri oldu. Onun daxili və xarici dizaynı arasındakı həmahəngliyini, inşasının mürəkkəb quruluşunu çox bəyəndim. Bakıya maraqla gəldik, sevgi ilə ayrılırıq.

Turistlərin səmimi və şən simalarından hər şey aydın idi. Bakı onlara istiqanlılıqla qucaq açmış, onlar da şəhərimizdən məxsusi bir sevgi ilə ayrılırdılar. Növbəti dəfə Azərbaycan böyük bir beynəlxalq tədbirin təşkilatçılığını etdi və hər kəsi məmnuniyyətlə qəbul edib yola saldı.

***Ülkər XASPOLADOVA,***
***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Sürət, həyəcan, möhtəşəm Azərbaycan Qran-prisi

## Bakı daha bir mötəbər idman bayramına yüksək səviyyədə evsahibliyi etdi



**İyunun 10-12-də Bakı planetin bir nömrəli avtomobil yarışına 6-cı dəfə evsahibliyi etdi. "Formula-1" dünya çempionatının 8-ci mərhələsi olan Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışdı.**

Gərgin keçən mübarizə sürət həvəskarlarının böyük marağına səbəb oldu. 500 milyondan artıq tamaşaçı kütləsinə malik yarışı 60-dan çox ölkədən çoxlu sayda azarkeş paytaxtımızda tribunalardan izlədi.

"Formula-1" üzrə dünya çempionatı 1950-ci ildən keçirilir. Artıq 72 ildir ki, bu yarış böyük infrastruktura malik olan ölkələrdə təşkil edilir. Bu cür tədbirlərin şəhərin küçələrində keçirilməsi təcrübəsi mövcuddur və belə yarışlar Monako, İspaniya, Sinqapur kimi ölkələrdə baş tutur. Hər il təşkil olunan "Formula-1" yarışları ayrıca Qran-pri mərhələsindən ibarət olur və ilin sonunda həm pilotlar, həm də komandalar arasından qaliblər müəyyən edilir.

Cari mövsümün Azərbaycan Qran-prisində "Mercedes" komandasının heyətində Luis Hamilton və Corc Rassel, "Ferrari" komandasında Karlos Sayns və Çarls Lekler, "Williams"ın heyətində Aleksander Albon və Nikolas Latifi yarışıblar. "Red Bull Racing" komandasında Serxio Peres, Maks Ferstappen, "Alpha Tauri"də Pyer Qasli və Yuki Tsunoda, "Alpine"da isə Fernando Alonso ilə Esteban Okon mübarizə aparıblar. Bundan başqa, "Alfa Romeo"nun heyətində Valtteri Bottas və Cou Quanju, "McLaren"də Daniel Rikkardo və Lando Norris yürüşdə iştirak ediblər. Pilotlar Mik Şumaxer və Kevin Maqnussen "Haas", Sebastian Fettel və Lans Stroll "Aston Martin" komandasının idman şərəfini qoruyublar.

İki saata yaxın davam edən yürüşdə bütün rəqiblərini geridə qoyan "Red Bull Racing" komandasının niderlandlı pilotu Maks Ferstappen (1:34:05.941) "Formula-1" Azərbaycan Qran-prisinin qalibi olub. Onun komanda yoldaşı meksikalı Serxio Peres yarışı (+20.823s) ikinci sırada başa vurub. "Mersedes" komandasının britaniyalı pilotları Corc Rassel (+45.995s) üçüncü, Luis Hamilton (+71.679s) dördüncü olublar. İlk beşliyi "Alphatauri" komandasının fransalı sürücüsü Pyer Qasli (+77.299s) tamamlayıb. Beşlikdə qərarlaşan pilotlar aktivlərinə müvafiq olaraq, 25, 19, 15, 12 və 10 xal yazdırıblar.

Bununla da niderlandlı pilot Maks Ferstappen "Formula-1" Azərbaycan Qran-prisində birinci olmaqla cari mövsümdə beşinci qələbəsini qazanıb. Bakıdakı uğur niderlandlı pilotun karyerasında 25-ci qələbədir. Ümumilikdə 152 yürüşdə gücünü sınayan M.Ferstappen ilk qələbəsini 2016-cı ildə İspaniya Qran-prisində qazanmışdır.

Maraqlı idman mübarizəsi şəraitində keçən Qran-pridə 5 sürücü - Karlos Sayns, Şarl Lekler (hər ikisi "Ferrari"), Cou Quanyu ("Alfa Romeo"), Kevin Maqnussen ("Haas") və Lans Strol ("Aston Martin") bolidlərdə yaranan texniki nasazlıq nəticəsində mübarizəni erkən dayandırıblar.

"Formula-1" Azərbaycan Qran-prisi çərçivəsində Bakıda "Formula-2" yarışları da keçirilib. Bu yarışda hər biri iki pilotla təmsil olunan 11 komanda birincilik uğrunda mübarizə aparıb. İyunun 10-da keçirilmiş sərbəst yürüş "Hitech Grand Prix" komandasının estoniyalı pilotu Yuri Vipsin qələbəsi ilə başa çatıb. İlk üçlüyü "Carlin" komandasının üzvü Liam Louson və "Hitech Grand Prix" komandasının pilotu Markus Armstronq tamamlayıblar.

Həmin gün keçirilmiş sıralama yürüşündə "Hitech Grand Prix" komandasının estoniyalı pilotu Yuri Vips qalib adını qazanıb. "Carlin" komandasının üzvü Liam Louson ikinci, "Prema Racing"in pilotu Dennis Hauqer üçüncü yeri tutublar. İyunun 11-də keçirilmiş "Formula-2" üzrə sprint yürüşündə "ART Grand Prix" komandasının pilotu Frederik Vesti birinci, "Prema Racing"dən Cehan Daruvala ikinci, "Carlin" komandasının sürücüsü Liam Louson isə üçüncü olublar.

İyunun 12-də isə "Formula-2" üzrə 29 dövrədən ibarət əsas 29 "Prema Racing" komandasının pilotu Dennis Haugerin qələbəsi ilə başa çatıb. "Carlin" komandasının pilotu Logan Sargeant ikinci, "MP Motorsport"un sürücüsü Felipe Druqoviç üçüncü yeri tutublar.

Beləliklə, qarşıya qoyulmuş vəzifə - idman tədbirinin tələb olunan səviyyədə təşkili və onun iştirakçılarının ədalətli mübarizə aparması üçün lazımi şəraitin yaradılması uğurla icra olundu. Bakı Şəhər Halqası əməliyyat şirkəti əlaqədar dövlət orqanları ilə sıx əməkdaşlıq şəraitində idman tədbirini ən yüksək səviyyədə təşkil etdi, "Formula-1" komandalarının və yarışı televiziya ilə izləyən yüz milyonlarla motoidman azarkeşinin rəğbətini qazandı. Mübaliğəyə varmadan demək olar ki, Azərbaycanda Qran-prinin təşkili təqdirəlayiq idi.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR



# Pambığın "ağ qızıl" olması üçün



## Salyanlı fermerlər aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə görürlər

**Salyanın pambıqçı fermerləri arxada qalan 3 ildə dalbadal ölkə üzrə birincilərdən olmuşlar. 6 min 134 hektar sahənin hər hektarından 36,9 sentner məhsul əldə edilmişdir ki, bu da ümumilikdə 22 min 691 ton "ağ qızıl" deməkdir.**

Əldə olunan nailiyyətdə Kür Qaraqaşlı inzibati ərazi nümayəndəliyinə daxil olan kəndlərdə yaşayan torpaq mülkiyyətçilərinin xüsusi payı var. Bu da səbəbsiz deyil. Kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə tanınmış alim, akademik Feyruz Məlikov, professor Ağaxan Ağabəyli bu torpağın yetirmələridir. Onların ardınca gedən onlarca gənc Gəncə Kənd Təsərrüfatı İnstitutunda (indiki Aqrar Universiteti) təhsil alaraq Salyana qayıtmışlar. Həmin kadrlar rayonun kənd təsərrüfatı işlərini irəli aparmış, bəziləri də rəhbər vəzifələrə təyin olunmuşlar. Sovetlər birliyi zamanında kənddəki "Oktyabr" kolxozunda hər il rayon üzrə ən yüksək məhsul əldə edilmişdir. Bu uğurlar isə torpağa elmi əsaslarla yanaşmaq nəticəsində mümkün olmuşdur.

Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Tarıyel Atamalıyevlə pambığın becərilməsi ilə tanış olmaq üçün Qaraqaşlı kəndində bir neçə fermerin təsərrüfatına baş çəkdik. Qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyinin Sort Sınaq Məntəqəsi bu kəndin ərazisində yerləşir.

Yolumuzun üstündə olduğu üçün ilk olaraq həmin təsərrüfatın sahələrinə baş çəkdik. Məlumat üçün deyək ki, müəssisə 1934-cü ildən fəaliyyət göstərir. Pambıq, taxıl, yonca və digər bitkilərin məhsuldarlığı, susuzluğa, xəstəliklərə davamlılığı ilk olaraq belə məntəqələrdə yoxlanılır, sınaqdan keçirilir.

Məntəqənin direktoru Balaeyvaz Hüseynov dedi ki, cari il 21 pambıq sortu əkiblər və bunun 14-ü yerli, 7-si xarici ölkələrdən gətirilən növlərdir. Təsərrüfatın özünün 6 işçisi, 4 texnikası var. Məntəqənin müdiri son illər onlara göstərilən köməkdən, yaradılan şəraitdən razılıq etdi: "2018-ci ildə kənd təsərrüfatı naziri İnam Kərimov təsərrüfatımızda olarkən işçilər üçün bir orağın belə olmadığını görüb köməkçisinə bunları qeyd etməyi tapşırdı. Bir müddət keçəndən sonra təsərrüfatımız üçün inzibati bina, anbar, pambıq qurutmaq üçün meydança, su hovuzu tikintisinə başlanıldı və qısa vaxtda həmin işlər başa çatdırıldı. Biz də bu diqqət və qayğıkeşliyin əvəzini öz işimizlə verməyə çalışırıq. Elə həmin il yüksək nəticə əldə etdik. Buna görə "Tərəqqi" medalı ilə təltif edildim. Bu ilin məhsuluna gəldikdə aprel ayında 26 hektara çiyid səpdik. Havaların soyuq keçməsi çıxışı müəyyən müddətdə ləngitdi. Bəzi sahələr xəstəliyə yoluxsa da, qabaqlayıcı tədbirlər gördük. Dərmanlama işləri apardıq. Havalar getdikcə istiləşir. Pambığınkı da günəş və sudur. Su məsələsində də, şükür, hələlik bir çətinliyimiz yoxdur. Kür çayında suyun səviyyəsi normaldır. Hazırda ikinci kompleks becərmə aparırıq. Sahələri alaq otlarından təmizləmişik. İyun ayının 20-dən kultivatorla hər hektara 200 kiloqram karbamid verib birinci suvarmanı aparacağıq".

Kürqaraqaşlı inzibati ərazisinə daxil oln 5 kənddə 600 hektara yaxın pambıq əkilmişdir. Bunun 295 hektarı "MKT-İK" MMC-nin, qalanı isə "P-Aqro" MMC-nin filialının payına düşür.

Fermer Oqtay Səmədov təcrübəli pambıqçılardandır. Orta ixtisas təhsilli kənd təsərrüfatı mütəxəssisidir. Sovet vaxtı Salyandakı Kənd Təsərrüfatı Texnikumunun mexanizasiya şöbəsini bitirib. Kəndlərindəki "Oktyabr" kolxozunda mexanizator işləyib. 1996-cı ildə kolxozlar ləğv olunandan, torpaq islahatı gedəndən sonra tərəddüd etmədən öz pay torpağını əkib-becərib. Əldə etdiyi qazancla əlavə torpaq alaraq əkin sahəsini artırıb. Bundan başqa, hər il icarəyə torpaq götürür. Hazırda 30 hektar pambıq, 6 hektar arpa, 8 hektar buğda və 14 hektar yonca sahəsi var. Biçdiyi yoncanı, taxıl bəlimini şəxsi texnikası ilə bağlayır. Bu işdə kiçik oğlu Ümid ona yaxından kömək edir. Keçən il 14 hektar sahənin hər hektarından 52 sentner pambıq götürüb.

Fermerin sözlərindən giley-güzar da hiss etdik. İndiki bahalıqda pambığın qiymətinin aşağı, ziyanvericilərə qarşı dərmanların keyfiyyətinin aşağı olması fermeri razı salmır. Buna baxmayaraq, qazandığı nailiyyətlər bu il onu daha yüksək məhsul götürməyə ruhlandırıb. Təbiətin törətdiyi bəzi çətinliklər olsa da, iyun ayının ortasına kimi iki dəfə kompleks becərmə aparıb, sahələri alaq otlarından təmizləyib. Dediklərindən məlum oldu ki, ayın 20-dən etibarən pambıq sahələrinə gübrə verib suvaracaq.

Cari ilin məhsulu üçün rayon üzrə 1486 nəfər fermer və torpaq mülkiyyətçisi pambıq istehsalı, tədarükü və emalı ilə məşğul olan 5 şirkətin filialı ilə müqavilə bağlayıb. Əkilmiş sahələrin yarıdan çoxunda 2-ci kompleks becərmə tədbirləri başa çatmışdır. Yaxın günlərdə digər aqrotexniki tədbirlər də vaxtında və keyfiyyətlə görüləcək. Dövlət Aqrar İnkişaf Mərkəzinin və şirkət filiallarının mütəxəssisləri bununla əlaqədar hər gün kənd əməkçilərinin yanındadırlar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Dənli bitki toxumlarının emalı zavodları mövsümə hazır vəziyyətə gətirilib

Azərbaycanda toxumçuluğun inkişaf etdirilməsi məqsədilə Dövlət Toxum Fondunun tabeliyində Ağcabədi, Tovuz, Xaçmaz, Şəki və Qobustan rayonlarında dənli bitki toxumlarının emalı müəssisələri fəaliyyət göstərir.

Hər il olduğu kimi, bu il də zavodlar mövsümə tam hazır vəziyyətə gətirilib, zavodların operativ və fasiləsiz fəaliyyəti üçün müvafiq tapşırıqlar verilib. Toxum emalı zavodlarında yerli iqlim şəraitinə və xəstəliklərə davamlı toxumların emal edilməsi, fərdi toxumçuluq təsərrüfatlarından tədarük olunan toxumların təmizlənməsi, qablaşdırılması həyata keçiriləcək. Toxumçuluq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər zavodlara müraciət edə bilərlər. Toxum emalı zavodlarında kənd təsərrüfatı məhsulları istehsalçılarına xidmətlər növbəlilik prinsipi ilə həyata keçiriləcəkdir.

Zavodların emal gücü saatda 5 tondur. Zavodlarda quraşdırılan qurğular vasitəsilə emal olunan toxum materialını digər ənənəvi qurğulardan fərqli olaraq 98 faiz təmizləmək mümkündür. Bu toxumların əkin sərfiyyatı digər qurğularda təmizlənənlərdən 20-30 faiz azdır. Zavodlarda həyata keçirilən toxum emalı həm əkinə sərf edilən toxumun həcminin azalmasına imkan verir, həm də fermerin məhsul istehsalında çəkdiyi xərcləri əsaslı şəkildə azaldır.

Zavodlarda quraşdırılmış 3 min tonluq silo qurğularının əsas funksiyası təqdim olunan toxum materialını qəbul edərək emal xəttinə davamlı ötürülməsi və həmin qurğularda saxlanılan toxumun digər ərazilərə daşınması üçün avtomobillərə asanlıqla yüklənilməsini təmin etməkdir. Mövsüm başa çatdıqdan sonra dövlət ehtiyacı üçün tədarük olunmuş toxumun ehtiyatı bu qurğularda təhlükəsiz saxlanılır.

Ümumiyyətlə isə, emal prosesi dörd mərhələdən ibarətdir. İlk mərhələdə əsas daş qalıqları və iri saman çöpləri, ikinci mərhələdə xırda saman çöpləri və vələmir, üçüncü mərhələdə xırda buğdalar, dördüncü mərhələdə buğda köynəyi və boş buğdalar təmizlənərək kalibrləmə edilir. Təmizlənmiş buğdalar sürmə xəstəliyinə qarşı maddə ilə dərmanlanaraq 50 kiloqramlıq kisələrə yığılır. Toxum emalı zavodlarının əsas üstünlüyü toxum emalını az itki ilə həyata keçirməsidir.



Qeyd edək ki, dənli bitki toxumlarının emalı zavodları mövsumdə toxum istehsalçılarının yüksək reproduksiyalı toxumlarla təmin edilməsində vacib rol oynayır.

# Göyçayda taxıl biçininə hər gün 45-dən çox kombayn çıxır

Göyçayda taxıl biçininə mütəşəkkil hazırlıqla başlanılıb. Rayon icra hakimiyyətindən AZƏRTAC-a verilən məlumatda bildirilib ki, cari ilin məhsulu üçün 12 min 342 hektar sahədə taxıl yetişdirilib. Bunun 6200 hektarı buğda, 6142 hektarı isə arpadır.

Zəmilərə hər gün hüquqi və fiziki şəxslərə məxsus 46 kombayn çıxarılır. İlkin olaraq daha tez yetişən arpa sahələri biçilir. Artıq 2784 hektar sahənin məhsulu biçilib. Hələlik hər hektardan orta hesabla 35 sentner arpa götürülür. Bu da taxılçıları qane edir. Bölgədə mühüm strateji məhsul olan taxılın vaxtında və itkisiz yığılması üçün bütün qüvvələr səfərbər olunub. Bu mühüm kampaniya rayonun demək olar ki, bütün ərazilərində, xüsusilə Yeniarx, İnçə, Alpout, Çaxırlı, Şəkər, Qaraməryəm və bir sıra digər icra nümayəndəliklərində daha mütəşəkkil aparılır.

# Tədarük məntəqələrinə 186,4 tondan çox yaş barama təhvil verilib

Ölkədə yaş barama tədarükü davam edir. İyunun 11-dək kümçülər tərəfindən tədarük məntəqələrinə 186 ton 474 kiloqram yaş barama təhvil verilib.

Ən çox barama tədarükü Zərdab rayonunda aparılıb. Zərdab kümçüləri tədarük məntəqələrinə 50 ton 948 kiloqram yaş barama təhvil veriblər. Məhsul tədarükünə görə, Ağcabədi (21 ton 143 kq), Balakən (19 ton 117 kq), Bərdə (11 ton 876 kq), Füzuli (9 ton 994 kq), Kürdəmir (7 ton 775 kq), Sabirabad (5 ton 206 kiloqram) və Tərtər (5 ton 41 kiloqram) rayonları öndə gedir. Gün ərzində ümumilikdə ölkə üzrə tədarük məntəqələrinə 29 ton 432 kiloqram yaş barama təhvil verilib.

Yaş barama istehsalı dövlət tərəfindən subsidiyalaşdırılır. Bu ildən yaş barama tədarükünə görə dövlət tərəfindən verilən subsidiyanın məbləği və məhsulun alış qiyməti artırılıb. Kümçülər yaş baramanı kiloqramı 5 manatdan "AzərÍpək" MMC-yə təhvil verirlər. Dövlət əlavə olaraq hər kiloqram yaş barama istehsalına görə fermerlərə 6 manat subsidiya ödəyir. Ümumilikdə fermer təhvil verdiyi hər kiloqram yaş baramanın əvəzində 11 manat alır.

Bu il dövlət tərəfindən kümçülərə əvəzsiz olaraq 11130 qutu ipəkqurdu toxumu paylanıb. Cari ildə Azərbaycanın 40 rayonunda yaş barama tədarükü aparılır.

# Balakəndə indiyədək 12 min tonadək tərəvəz istehsal olunub

Bu il Balakən rayonunun torpaq mülkiyyətçiləri 2037 hektar sahədə tərəvəz bitkiləri əkiblər. Hazırda təsərrüfatlarda tərəvəz yığımı davam edir. İndiyədək 755,4 hektar sahənin məhsulu yığılıb, 11 min 901 ton tərəvəz istehsal olunub. Hər hektardan orta məhsuldarlıq 157,5 sentner təşkil edir.

Bu barədə AZƏRTAC-a Balakən Rayon Statistika İdarəsindən məlumat verilib. Bildirilib ki, mövsümün əvvəlindən indiyədək rayonda 8 min 640 ton xiyar, 563 ton pomidor, 56 ton kələm, 1355 ton yaşıl lobya, 896 ton sarımsaq və 391 ton digər tərəvəz məhsulları istehsal olunub.

Təsərrüfatlarda kartof yığımı da davam edir. Torpaq mülkiyyətçiləri indiyədək kartof əkilmiş 618 hektar sahənin 135 hektarından 1314 ton kartof yığıblar. Hər hektarda orta məhsuldarlıq 97,3 sentner təşkil edir.

# *Daşkəsən:* selin fəsadları aradan qaldırılır







Xəbər verildiyi kimi, iyunun 10-u saat 19 radələrində Daşkəsən rayonu ərazisində dolu ilə müşahidə olunan güclü leysan yağışları rayonda bir sıra dağıntılar törətmişdir.

Sel rayonun əsasən Çanaqçı və Alaxançallı kəndlərində körpülərə, yol, elektrik, rabitə təsərrüfatlarına, fərdi avtomobillərə, əhalinin əkin sahələrinə və yaylaqlarda vətəndaşların mal-qarasına ciddi ziyan vurmuşdur. Daşkəsən Rayon İcra Hakimiyyətindən verilən məlumata görə, sel suları Çanaqçı kəndi ərazisində kəndin iki hissəsini birləşdirən körpünü tamamilə dağıdaraq aparmış, Alaxançallı kəndi ərazisində bir körpünü dağıtmış, kəndlərarası avtomobil yolunun xeyli hissəsini sıradan çıxarmış, bir neçə avtomobili kənddən keçən çay sularının axınına salaraq aparmışdır. Bundan başqa, bir çox ərazilərdə dağlardan iri qaya parçaları və palçıq kütləsi avtomobil yollarına töküldüyündən həmin yollarda nəqliyyatın hərəkəti tam dayanmışdı. Təbii fəlakət zamanı insan itkisi və xəsarət alan olmamışdır.

Hazırda dəymiş ziyanın həcminin müəyyən edilməsi istiqamətində Daşkəsən rayon Fövqəladə Hallar Komissiyası tədbirlər görür. Bəzi ərazilərdə təbii fəlakətin törətdiyi ziyan artıq aradan qaldırılmışdır. Bir sıra ərazilərdə isə işlər davam edir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) yaydığı məlumatda bildirilir ki, təbii fəlakətin yaşandığı əraziyə AAYDA-nın xüsusi texnikaları və canlı qüvvəsi cəlb olunub.

Məlumata əsasən, Çanaxçı-Alaxançallı avtomobil yolunun təqribən 4 kilometrlik məsafədə təmizlənməsi istiqamətində işlər aparılıb. Agentlik tərəfindən görülmüş təxirəsalınmaz tədbirlər nəticəsində yolun hərəkət hissəsi təmizlənərək avtonəqliyyat vasitələrinin hərəkəti rayon mərkəzindən Alaxançallı kəndi istiqamətində tam bərpa olunub. Hazırda Alaxançallı kəndi daxilində bələdiyyə yollarının təmizlənməsi ilə bağlı işlər aparılır və bu işlər də tam yekunlaşacaq.

Həmçinin Daşkəsən rayonunun Çanaxçı-Zivlən avtomobil yolunun bəzi hissələrinin iri qaya parçaları və palçıq kütləsinin təmizlənməsi sahəsində də tədbirlər görülür. Sözügedən yol üzərində yerləşən və 12 metr uzunluğa malik metal körpünün sel suları nəticəsində yuyulmuş yanaşma yolunun bərpasının da qısa müddət ərzində yekunlaşdırılması nəzərdə tutulub.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Kürdəmirdə fermerlərə təlim keçirilib

Kürdəmir rayonunun Garıs-Əyribənd kəndində yerləşən və nümunə üçün yaradılmış 10 ha taxıl sahəsində fermerlərə aqrotexniki tədbirlərin vaxtında yerinə yetirilməsi və biçin vaxtı təhkükəsizlik qaydalarına əməl olunması mövzusunda növbəti təlim keçirilib.

Tədbirdə Kürdəmir Regional Təlim Mərkəzi, Aqrar Xidmətlər Agentliyinin Bitki Mühafizəsi və Fumiqasiya Mərkəzi, yerli qurumların nümayəndələri, Kürdəmir Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri, taxılçılıqla məşğul olan fermerlər iştirak ediblər.

Kürdəmir Regional Təlim Mərkəzinin təlimçiləri tərəfindən keçirilən təlimdə fermerlərə əkin sahələrində zərərvericilərə qarşı mübarizənin aparılması və onların qarşısının vaxtında alınması istiqamətində zəruri tədbirlər barədə ətraflı məlumat verilib. Eyni zamanda əkinlərin alaqlanma, xəstəliklərə yoluxma və zərərvericilərlə sirayətlənmə dərəcəsinin təyin edilməsi üsulları təlim iştirakçılarının diqqətinə çatdırılıb.

# Ağstafada Neolit dövrünün izləri aşkarlanıb

Ağstafada Neolit dövrünə aid "Çağrıtəpə" abidəsində 3 ildən bəri aparılan qazıntı işlərinin növbəti mərhələsinə başlanılır. Burada üst qat götürülərək növbəti mərhələyə qədəm qoyulacaq.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun ekspedisiyasının Ağstafa rayonunun Xətai kəndi ərazisində Neolit dövrünə aid yaşayış yerinin tədqiqatına başladığı müddətdən 3 il keçir. Bu illər ərzində ekspedisiya qrupu qazıntı zamanı ərazidən zəngin mədəniyyət nümunələri əldə edib. İlkin analizlərə görə, ərazinin qədim sakinləri çayətrafı olduğuna görə burada kompakt yaşayıblar. Son əldə olunan nailiyyətlərdən biri də dairəvi şəkildə yaşanılan kompakt düşərgədə tikililərin aşkar edilməsidir.

Ekspedisiyanın rəhbəri AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun şöbə müdiri Nəcəf Museyibli bildirib ki, abidə sovet dövründən məlum olsa da, onun tədqiqinə son illərdə başlanılıb. "Burada aşkar olunmuş bütün tapıntılar abidənin Neolit dövrünə aid olduğunu, yəni təxminən 8 min il yaşı olduğunu söyləməyə əsas verir. Bu abidənin qədim sakinləri əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olublar. Aşkar olunmuş tapıntılar müxtəlif daşdan, obsidiandan, sümükdən hazırlanmış məişət əşyalarından ibarətdir, - deyə N.Museyibli bildirib.

Hazırda 200 kvadratmetrlik ərazidə arxeoloji qazıntılar davam edir. Artıq üst qatda aşkara çıxmış maddi mədəniyyət nümunələri götürülərək alt qatlara doğru qazıntı aparılacaq. "Ərazidə aparılan qazıntılar bölgənin Neolit dövrünün araşdırılması üçün olduqca əhəmiyyətlidir. Eyni zamanda qazıntılar ərazinin Azərbaycanın Cənubi Qafqaz və Yaxın Şərq mədəniyyəti sistemlərində yerini müəyyənləşdirməyə imkan verir", - deyə institutun şöbə müdiri əlavə edib.

# Azərbaycan Avropa çempionudur

**Azərbaycanın minifutbol üzrə milli komandası Slovakiyanın Koşitse şəhərində başa çatmış Avropa çempionatının qalibi olub. Baş məşqçi Elşad Quliyevin qitə birinciliyinə hazırladığı kollektiv final qarşılaşmasında altıqat Avropa çempionu Rumıniya millisini 1:0 hesabı ilə məğlub edərək qızıl medallara yiyələnib.**



## İdman tariximizə yeni səhifə yazıldı

### 24 komandanın mübarizə apardığı çempionatda qalib olmaq sevinci

Qazandığı nəticə ilə hamımıza böyük sevinc və qürur hissləri yaşadan Azərbaycan milli komandasının heyətində Anar Məmmədov, Tanrıverdi Məhərrəmli, Tural Nərimanov, Vitali Borisov, Seymur Məmmədov, Asif Zeynalov, Elvin Əlizadə, Samir Həmzəyev, Vüsal İsayev, Taleh Babayev, Mirmehdi Rzayev, Ramil Həsənzadə, Orxan Əliyev, İlkin Hacıyev, Təmraz Əmircanov, Rəvan Kərimov, Bəxtiyar Soltanov, Mehdi Rəsulov, Davud Kərimi və Elmar Qasımov yer almışdılar.

Azərbaycan millisi 24 komandanın yarışdığı Avropa çempionatında mübarizəyə B qrupunda başlamışdı. Komandamız qrupda da bizə rəqib olan Rumıniya yığmasına debüt matçında məğlub olmuş (0:2), sonradan toparlanaraq İspaniya (5:1) və Albaniya (1:0) millilərinə qalib gəlmiş və səkkizdəbir finala yüksəlmişdir. Komandamız bu mərhələdə İsraili 3:0, dörddəbir finalda isə ev sahibi Slovakiyanı minimal hesabla məğlub edərək yarımfinala adlamışdır. Yarımfinalda Qazaxıstan yığması üzərində əzmkar qələbə (3:2) qazanan futbolçularımız həlledici matçda oynamaq hüququ qazanmışlar. Komandamız həlledici görüşdə güclü Rumıniya millisinə 1:0 hesabı ilə qalib gəlmişdir.





Final qarşılaşmasında vurulan yeganə qolun müəllifi Seymur Məmmədov komandaya göstərilən dəstəyə görə xalqımıza təşəkkürünü bildirib: "Hər bir futbolçunun arzusudur ki, final oyununda qol vursun və bu, qələbə qolu olsun. Çempion olmaq, Vətənə bu cür qələbə ilə qayıtmaq böyük hissdir. Bizə göstərdiyi dəstəyə görə Azərbaycan xalqına təşəkkürümü bildirirəm".

### Heyətdə legioner yoxdur, hamısı yerli futbolçulardır

Qitə birinciliyinə böyük maraq var idi. Bunu matçların gedişində, ümumiyyətlə, tədbirin işıqlandırılmasında da gördük. Həmçinin çempionatda kifayət qədər güclü komandalar mübarizə aparırdı.

Yeri gəlmişkən, qeyd edək ki, milli komandalar səviyyəsində futbolda son uğurumuz 2017-ci ildə Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında olub. O zaman U-23 millimiz bütün rəqibləri üstələyərək qızıl medallara layiq görülmüşdü. Bununla belə minifutbol üzrə Avropa çempionatında qazanılmış qələbə daha çox qiymətləndirilir. Belə ki, bu, böyüklər səviyyəsidir. Bundan əlavə, baş məşqçi də daxil olmaqla heyətdə legioner yoxdur və hamısı yerli futbolçulardır.

Qeyd edək ki, Bəxtiyar Soltanov çempionatın ən yaxşı oyunçusu, Davud Kərimi isə ən yaxşı qapıçı adına layiq görülmüşlər.

"Keçirdiyimiz hissləri sözlə ifadə etmək çox çətindir. Avropa çempionatındakı qələbəni xalqımıza həsr edirik". Bu sözləri jurnalistlərə açıqlamasında minifutbol üzrə Avropa çempionu olan Azərbaycan milli komandasının kapitanı Ramil Həsənzadə deyib. Futbolçu bildirib ki, Avropa çempionatında qalib gəlmək o qədər də asan deyil. Birinci oyundan sonuncu oyunadək matçlar çox çətin idi. Buna baxmayaraq, komandamız bütün rəqiblərinə qalib gəlməyi bacarıb.

Turnirin ən yaxşı oyunçusu seçilən Bəxtiyar Soltanov isə söz verir ki, bayrağımızı yüksəklərə qaldırmaq üçün bundan sonra da əllərindən gələni əsirgəməyəcəklər: "Turnirin ən yaxşı oyunçusu olacağımı gözləmirdim. Həm çempionatın qalibi olmaq, həm də yarışların ən yaxşı oyunçusu seçilmək mənə ikiqat sevinc verir. Finaldakı rəqib altıqat Avropa çempionu idi. Lakin oyunun məsuliyyətini dərk edirdik. Şükürlər olsun ki, qələbə qazandıq. Bütün oyunçularımız qalib olmaq üçün çox əziyyət çəkdilər. Qarşıda da yarışlarımız olacaq. Bundan sonra da hər şeyin ən yaxşısını edəcəyik ki, bayrağımızı yüksəklərə qaldıraq".

### Qitə birincisi adını qazanmaq qürurdur

Tarixində ilk dəfə minifutbol üzrə Avropa çempionu olan Azərbaycan yığma komandası artıq Vətənə qayıdıb və Heydər Əliyev Beynəlxalq Hava Limanında böyük coşqu ilə qarşılanıb. Qarşılanma mərasimində ölkəmizin idman ictimaiyyətinin nümayəndələri, federasiya rəsmiləri, futbolçuların yaxınları və jurnalistlər iştirak ediblər.

"Avropa çempionatının qalibi olmaq sözlə ifadə edilməyəcək dərəcədə möhtəşəm hissdir. Azərbaycan milli komandasının qitə birincisi adını qazanması ilə qürur duyuruq". Bunu Azərbaycan Minifutbol Federasiyasının təsisçisi, "Azfar Group" şirkətlər qrupunun rəhbəri Taleh Nəsibov jurnalistlərə açıqlamasında bildirib. O, qeyd edib ki, qitənin ən güclü komandalarından olan Rumıniyanı finalda məğlub etmək onlara unudulmaz hisslər yaşadıb: "Həlledici mərhələdə altıqat Avropa çempionu Rumıniya yığması ilə mübarizə apardıq. Komandanın əzmkarlığı nəticəsində bu böyük qələbəni qazandıq, Azərbaycan bayrağını ucaltdıq. Bizim üçün bundan böyük sevinc ola bilməz".




T.Nəsibovun sözlərinə görə, Azərbaycan Minifutbol Federasiyası (AMFA) ölkəmizdə bu idman növünün inkişafına və kütləviləşməsinə böyük töhfə vermiş "Azfar Group" şirkəti tərəfindən təsis edilib: "AMFA-nın yaradılmasının əsas təşəbbüskarı "Zirə" futbol klubunun fəxri prezidenti Orxan Məmmədovdur. Azərbaycanlılardan ibarət və milli ruha malik komanda yaratdıq. Onun qoyduğu məqsədə doğru irəlilədik və düzgün idarəetmə quraraq parlaq qələbəyə nail olduq. Bu qələbə Azərbaycan xalqı, bütün futbolsevərlər üçün bayramdır. Ümid edirəm ki, uğurların davamı gələcək".

Xatırladaq ki, həvəskar futbola peşəkar yanaşma konsepsiyasının təşəbbüskarı "Azfar Group" şirkəti bir müddət əvvəl Azərbaycanda minifutbolun yeni inkişaf mərhələsini təqdim etmişdi. Uğurlu layihələr silsiləsinin davamı kimi şirkət tərəfindən təsis olunmuş Azərbaycan Minifutbol Assosiasiyasının fəaliyyəti ölkəmizdə həvəskar futbolçuları bir araya gətirmək və minifutbol idman növünü peşəkar müstəviyə çıxarmaq məqsədini daşıyır, yeni imkanlar və fərqli inkişaf istiqamətlərini özündə əks etdirir. Assosiasiya həvəskarlar arasında geniş vüsət almış minifutbolu peşəkar səviyyədə təşkil olunmuş və hər kəsin iştirak edə biləcəyi çempionatlar şəklində təşviq etmək və bu turnirləri ölkə miqyasına çıxarmağı qarşısına məqsəd qoyub. Müasir standartlara cavab verən minifutbol meydançalarının və həvəskar futbolçularla qurulmuş sıx əməkdaşlığın mövcudluğu AMFA-nın bu istiqamətdə uğurlu fəaliyyətinin zəmanətidir.

### Ölkə futbolunun inkişafına dəstək

Assosiasiyanın qarşısında duran əsas məqsədlərdən biri də minifutbol üzrə beynəlxalq qaydaların və standartların Azərbaycanda tətbiqini və ölkə minifutbolunun beynəlxalq minifutbol ailəsinə inteqrasiyasını həyata keçirməkdir. Təcrübə mübadiləsinin aparılması məqsədilə AMFA artıq Avropa və Dünya Minifutbol federasiyaları ilə sıx əməkdaşlıq edir. Nəticə etibarilə AMFA Azərbaycanda ilk dəfə olaraq həvəskarlar arasında minifutbol üzrə milli yığmanı formalaşdırıb və beynəlxalq yarışlarda millimizin iştirakını təmin edib. Nəticədə 2018-ci ildə millimiz Avropa birinciliyində qüvvəsini sınayıb.

Bundan əlavə, bu əməkdaşlıq gələcəkdə AMFA-nın dəstəyi ilə beynəlxalq turnirlərin Azərbaycanda keçirilməsi və ölkəmizin beynəlxalq minifutbol arenasında təşviq olunması deməkdir. Ən önəmlisi milli komandanın üzvləri AMFA bayrağı altında keçirilən minifutbol üzrə turnirlərdə ən yaxşı nəticələr göstərən oyunçulardan ibarətdir. Bu isə ölkəmizin hər yerində, küçələrdə, məhəllələrdə, meydançalarda futbol oynayan hər bir həvəskar futbolçu üçün Azərbaycan adına tarix yazmaq imkanını verir.

AMFA sosial statusundan, peşəsindən və yaşından asılı olmayaraq bütün həvəskarları minifutbol bayrağı altında birləşdirir və bu birliyi beynəlxalq və peşəkar standartlara uyğun şəkildə inkişaf etdirir. Daha çox sosial istiqamətdə fəaliyyət göstərən assosiasiya ölkəmizdə idman və sağlam həyat tərzini stimullaşdıraraq ölkə futbolunun inkişafına dəstək olur. AMFA və futbol tarixində bir çox ulduzun minifutboldan peşəkar futbola keçid faktını əsas tutaraq, assosiasiya ölkəmizdə bu tendensiyanın daşıyıcısına çevrilərək həvəskar futbolla peşəkar futbol arasında körpü rolunu oynayacaq.

Beləliklə, Azərbaycanın idman tarixinə daha bir şanlı səhifə yazıldı. Qarşıda isə bizi yeni uğurlar, möhtəşəm idman nailiyyətləri gözləyir.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*







# Azərbaycan millisi UEFA Millətlər Liqasında ilk qələbəsini qazanıb



**Futbol üzrə Azərbaycan millisi UEFA Millətlər Liqasında ilk qələbəsini qazanıb.**

AZƏRTAC xəbər verir ki, baş məşqçi Canni De Byazinin yetirmələri Bakıda Belarus seçməsini qəbul edib.

Azərbaycan millisinin start heyətində Şahruddin Məhəmmədəliyev, Azər Salahlı, Bəhlul Mustafazadə, Emin Mahmudov, Renat Dadaşov, Ramil Şeydayev, Abbas Hüseynov, Eddi İsrafilov, Bədavi Hüseynov, Cəlal Hüseynov və Riçard Almeyda yer alıblar.

Belarus yığmasının heyətində meydana Pavel Pavlyuçenko, Kirill Peçenin, Valeri Boçerov, Ruslan Xadarkeviç, Vladislav Malkeviç, Sergey Politeviç, Qleb Şevçenko, Maks Ebonq, İvan Bahar, Yevgeni Yablonski və Vladislav Klimoviç çıxıblar.

"Dalğa Arena"da oynanılan qarşılaşmanı yunanıstanlı Anastasios Papapetrunun rəhbərlik etdiyi hakimlər briqadası idarə edib.

Qarşılıqlı hücumlar şəraitində keçən ilk hissədə hesab açılmayıb. İkinci hissəyə daha fəal başlayan millimiz matçın 76-cı dəqiqəsində istəyinə çatıb. Millimizin üzvü Mahir Emreli fərqlənərək matçda hesabı açıb. Matça əlavə olunmuş vaxtda Ramil Şeydayev rəqib qapısına yol taparaq hesab arasındakı fərqi artırıb. Bu, oyunda vurulan sonuncu qol olub.

Beləliklə, Azərbaycan millisi 2:0 hesablı qələbə qazanıb. Komandalar arasında ikinci tura təsadüf etmiş ilk matçda qolsuz bərabərlik qeydə alınıb. Azərbaycan millisi ilk turda səfərdə Qazaxıstana 0:2, üçüncü turda evdə Slovakiyaya 0:1 hesabı ilə uduzub. Rəqib isə birinci qarşılaşmasında Slovakiyaya yenilib, üçüncü turda Qazaxıstanla heç-heçə edib - 1:1.

Hazırda Qazaxıstan yığması 10 xalla C Liqasının 3-cü qrupuna başçılıq edir. Slovakiyanın 6, Azərbaycanın 4, Belarusun isə 2 xalı var.

*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün yanğın mühafizə sistemlərinin alınıb-quraşdırılması məqsədilə açıq tender elan edir

Açıq tenderdə iştirak etmək istəyənlər 1000 (bir min) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs: İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər.

**Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar açıq tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması (yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, texniki xidməti və təmiri);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, Sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 5 (beş) ay ərzində İcraçı tərəfindən Sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır. Çatdırılma ünvanı: Təhsil Nazirliyinin bir sıra təhsil müəssisələri.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 07.07.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 19.07.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 20.07.2022-ci il saat 16:00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Seçici etimadsızlığı

## Fransada keçirilən parlament seçkilərinin birinci turunda aşkar lider müəyyənləşməyib

**Fransada keçirilən parlament seçkilərinin ilk turunda Prezident Emmanuel Makronun "Birgə" koalisiyası 25,8 faiz səslə liderdir. Jan-Lük Melanşonun başçılıq etdiyi "Yeni Xalq Ekoloji və Sosial İttifaqı" (NUPES) minimal fərqlə - 25,7 faizlə ikinci, Marin Le Penin sağçı populist "Milli Birlik" partiyası isə 18,7 faiz səslə üçüncüdür.**





Hələlik parlamentdə ən böyük müxalifət qüvvəsi olan sağ mərkəzçi "Respublikaçılar" partiyası birinci turda cəmi 10,4 faiz səs qazana bilib.

Seçkilərdə ümumi seçici fəallığı cəmi 47,5 faiz təşkil edib ki, bu da 2017-ci ildə keçirilən son seçkilərdəki səslərdən də (48,7 faiz) azdır. Frans Press agentliyi qeyd edir ki, bu, rekord aşağı göstəricidir.

### Makronun koalisiyası parlamentdə mütləq çoxluğa yiyələnə bilmir

Göründüyü kimi, Emmanuel Makronun "Birgə" koalisiyası ilk turda əsas rəqibə cəmi 0,1 faiz fərqlə qalib gəlib. İkinci turda ölkə liderinin tərəfdarları parlamentdə mütləq çoxluq uğrunda mübarizə aparacaqlar.

Fransanın parlament seçkiləri sisteminin xüsusiyyətlərini nəzərə alaraq, ikinci turun nəticələrinə görə qüvvələr nisbəti əhəmiyyətli dərəcədə dəyişə bilər. Birinci turda parlamentə düşmək üçün namizəd öz dairəsi üzrə seçicilərin 50 faizindən çoxunun dəstəyini qazanmalıdır. Namizədlərdən heç birinin belə nəticə əldə etmədiyi halda seçki dairələrində 12,5 faizdən çox səs toplayan bütün namizədlər ikinci tura keçirlər. Sosioloji xidmətlər birinci turdan sonra üstünlük verdiyi və məğlub olmuş namizədlərin əvəzinə seçicilərin ikinci turda əksər hallarda Makron koalisiyasının nümayəndələrini dəstəkləyəcəyini proqnozlaşdırır. Proqnozlara görə, ikinci turdan sonra Makronun koalisiyası 577 deputat mandatından 255-311-ni, Melanşonun ittifaqı 170 - 210-nu mandat əldə edə bilər.

Beləliklə, Makronun tərəfdarları hələ ki Milli Assambleyada mütləq çoxluğa zəmanət verməyiblər, lakin onlar belə bir nəticə əldə etmək şanslarını saxlayırlar. Bunun üçün isə 289 mandat tələb olunur.

### Nazirlər təhdid altındadır

Birinci turda səsvermənin ilk nəticələrinin dərcindən sonra parlament seçkilərində iştirak edən Fransa hökumətinin bir neçə üzvü vəzifəsindən getmək təhlükəsi ilə üzləşib. Bunu Fransa Daxili İşlər Nazirliyinin məlumatları sübut edir.

Seçkilərdə hökumət üzvlərinin yarıdan çoxu iştirak edir - 14 nazir və Baş nazir Elizabet Born. Prezident Emmanuel Makron xəbərdarlıq edib ki, seçki dairələrində məğlub olanlar kabinetdə qala bilməyəcəklər.

Baş nazir Kalvados departamentində öz bölgəsində birinci yeri qazansa da, solçu NUPES koalisiyasından olan rəqibi Noe Qoşar üzərində kifayət qədər üstünlüyə nail ola bilməyib. Seçicilərin 34,3 faizi Borna, 24,5 faizi isə NUPES-in namizədinə səs verib.

Bu dairədə üçüncü yeri tutan (21,7 faiz), Marin Le Penin "Milli Birlik" partiyasından namizədliyini irəli sürmüş Jan-Filip Ruanın səslərinin kimin alacağı dəqiq deyil. Səsvermə başa çatdıqdan sonra Le Pen tərəfdarlarını "Birgə" koalisiyası və solçu qüvvələr ittifaqı təmsilçiləri arasında seçim etməli olduqları təqdirdə ikinci turda səs verməməyə çağırıb.

Ekoloji planlaşdırılma və ərazilər üzrə nazir Ameli de Monşalen də təhlükəli vəziyyətə düşüb. O, paytaxt regionunun Esson departamentinin seçki dairəsində 31,4 faiz səs qazanıb. Solçu koalisiyadan olan rəqibi Jerom Gec isə 38,3 faiz səs toplayıb. Avropa məsələləri üzrə nazir-nümayəndə Kleman Bon turu ikinci yerdə tamamlayıb. O, 35,8 faiz səslə solçu qüvvələrin nümayəndəsi Karolin Mekaridən (40,43 faiz) geri qalır. Transformasiya və dövlət qulluğu naziri Stanislas Gerini də növbəti tura 6 faiz geriləmə ilə yollanır.

Hakim İntibah Partiyasının parlament fraksiyasının rəhbəri Kristof Kastaner də çətin vəziyyətdədir. Daxili İşlər Nazirliyinin sabiq rəhbəri 30,1 faiz səslə öz dairəsində birinci yeri tutsa da, sol koalisiyadan olan rəqibi Leo Valteri cəmi 0,86 faiz üstələyib.

20 faizdən az səslə yarışı tərk edən ekoloji keçid naziri (mənzil tikintisinə cavabdehdir) Emmanüel Varqon üçün seçkilər uğursuzluqla başa çatıb. Sabiq təhsil naziri Jan-Mişel Blanker də ikinci tura keçə bilməyib. O, 20 faizdən az səs toplayıb.

### Ən yaxşı nəticələr

Ən yaxşı nəticələrdən birini Nazirlər Kabinetinin gənc üzvü Qabriel Attal nümayiş etdirib. Keçmişdə hökumətin rəsmi təmsilçisi və hazırda Fransa Maliyyə Nazirliyində büdcə siyasəti üzrə nazir-nümayəndə seçicilərin 48 faizinin dəstəyini qazana bildiyi halda, onun NUPES-dən olan ən yaxın rəqibi Secil Subele cəmi 30,7 faiz səs toplayıb.

Cinsi təcavüz şübhələri ilə bağlı güclü media kampaniyasına baxmayaraq, həmrəylik, muxtariyyət və əlillərə yardım məsələləri naziri Damyen Abad 33,3 faiz səslə birinci yerdə qərarlaşıb. Daxili işlər naziri Jerald Darmanen isə birinci turu 39 faiz səslə inamla başa vurub.

Səsvermədə iştirak edən digər nazirlər orta səs fərqi ilə ikinci tura keçiblər. Əsas nazirliklərin rəhbərləri seçkilərdə iştirakdan imtina ediblər. Onların arasında silahlı qüvvələr naziri Sebastyan Lekornü, iqtisadiyyat və maliyyə naziri Brüno Le Mer, həmçinin Fransanın Böyük Britaniyadakı səfiri vəzifəsindən bu vəzifəyə keçən xarici işlər naziri Katrin Kolonna olub.

Fransa Milli Assambleyasına seçkilərin ikinci turu iyunun 19-na təyin edilib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# "Azərbaycan bizim ümumi evimizdir"

"Azərbaycan bizim ümumi evimizdir. Xoş günündə də, dar günündə də həmişə bir yerdə olmuşuq. Əsrlərdir ki, belə davam edib, bundan sonra da babalardan bizə miras qalmış bu ənənəni qoruyub, yaşadıb gələcək nəsillərə ötürmək biz gənclərin borcudur. 44 günlük Vətən müharibəsində qazanılan qələbə Azərbycanda yaşayan bütün xalqların qələbəsidir. Zəfər müharibəsində necə rəşadətlə birlikdə döyüşmüşüksə, qazanılmış qələbənin sevincini də birlikdə yaşayırıq".




Bu sözləri Azərbaycanda fəaliyyət göstərən "Samur" Milli Mədəni Mərkəzinin mədəniyyət şöbəsinin müdiri Zavir Nəcəfov demişdir. Bildirmişdir ki, rəhbərlik etdiyi Ləzgi Xalq Mahnı və Rəqs Ansamblı iyunun 12-də Müdafiə Nazirliyi və "Samur" Milli Mədəni Mərkəzinin birgə təşkilatçılığı ilə Bərdədə N saylı hərbi hissədə Qurtuluş gününə həsr olunmuş geniş konsert proqramı ilə çıxış edib. Konsertdən öncə qonaqlar Ulu Öndərin abidəsi önünə tər çiçəklər qoyublar. Bərdə və ətraf rayonlardan dəvət olunmuş şəhid ailələri və qazilərin də iştirak etdikləri konsertdən sonra mədəniyyət işçiləri əsgərlərlə birlikdə nahar edib, xatirə şəkilləri çəkdiriblər.

Sonra qonaqlar yeni tariximizin ən şanlı səhifələrindən birinin yazıldığı Suqovuşanda olublar. Müdafiə Nazirliyinin nümayəndələri qonaqları ordumuzun həmin ərazini işğaldan azad edərkən qəhrəmanlıqlar göstərdikləri döyüş meydanları ilə tanış ediblər. Sonda ansamblın üzvləri hərbi hissə rəhbərliyi tərəfindən xüsusi diplomlarla təltif olunublar.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

İlqar Saleh oğlu Rüstəmova məxsus 079333 nömrəli (Pr 22/ 08.09.2009) Veteran kitabçası itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevə əzizi

**TOFİQ BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevə əzizi

**TOFİQ BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin kollektivi zavodun mətbuat katibi Məqsəd Rəhimova atası

**HAFİS MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Amil Novruzova əzizi

**MAHİRƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Mətanət A" Şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevə əzizi

**TOFİQ BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Üzgüçülük Federasiyasının kollektivi Məqsəd Rəhimova atası

**HAFİS RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5975
Sifariş 1672
Qiymət 40 qəpik